

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

19 iyul
2025-ci il,
şənbə
№ 124 (6951)
Qiyməti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

# Prezident Ağdam və Xocalıda




Bax səh. 2

## İlham Əliyev: O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun!

## Bakı-Aşqabad əlaqələrində yeni mərhələ...

Azərbaycanın xarici siyasət proioritetləri sırasında türkdilli dövlətlər xüsusi yer tutur. Bu ölkələrlə əlaqələrin gücləndirilməsi, hətta müttəfiqlik səviyyəsinə çatdırılması ölkəmizin ən mühüm xarici siyasət hədəflərindən sayılır. Bu gün Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstanla yaxın qardaşlıq münasibətlərinin gücləndirilməsi, iqtisadi-siyasi əlaqələrin genişləndirilməsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində və ikitərəfli səviyyədə tərəfdaşlığın gücləndirilməsi həm bölgənin, həm də ölkəmizin inkişafına xüsusi dividendlər qazandırır.

Azərbaycan dəniz qonşusu olan Türkmənistan ilə də əlaqələrinin güclənməsinə hər zaman maraq göstərib. Bu mənada, qarşılıqlı səfərlər, atılan addımlar və imzalanan sənədlər əlaqələrin yeni mərhələyə qədəm qoymasını şərtləndirib.

Qeyd edək ki, iyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə səfəri bu əlaqələrin daha da güclənməsinə təkan verəcək. Prezident İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovla görüşdə bildirib ki, bu səfər Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi: “Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərimiz var və əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bu gün fikir mübadiləsi aparacağıq”.

Qeyd edildiyi kimi, iki ölkə arasında tarixi əlaqələr mövcuddur. Eyni kökə malik, tarixin bir...

Bax səh. 3




Bax səh. 4

## Sülh sazişinin paraflanması kimə və nəyə lazımdır?

Bax səh. 5

## “Bizim həyət”in daha bir ünvanı

Bax səh. 5

## 80 ildən sonra...

Bax səh. 6

## Yeni hökumətin qarşısında mühüm vəzifələr dayanır

Bax səh. 6

## 14 il, 2,5 milyon “ağıllı” sayğac və 480 milyon dollar investisiya

Hazırda dünyada cərəyan edən geosiyasi və geoiqtisadi proseslər fonunda enerji səmərəliliyinin artırılması hər bir ölkə üçün vacib çağırışlardan biri qismində çıxış edir. Enerji müstəqilliyini daha da möhkəmlətməyi hədəfləyən Azərbaycan da bu istiqamətdə dünyanın qabaqcıl şirkətləri ilə sıx əməkdaşlıq şəraitində davamlı olaraq müxtəlif layihələr həyata keçirir.

Bu günlərdə  Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyi və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Esyasoft Holding” şirkəti arasında ağıllı qaz şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında müqavilə imzalanıb. Ötən il Bakıda keçirilmiş COP29 çərçivəsində SOCAR-la “Esyasoft Holding” arasında imzalanmış əməkdaşlıq sazişinin davamı olan bu müqaviləni SOCAR prezidenti Rövşən Nəcəf, “Azəriqaz”ın baş direktoru Azər Məmmədov və “Esyasoft Holding”in baş icraçı direktoru Bipin Çandra imzalayıblar.

**Müştəri və vətəndaş məmnunluğunu yüksəltmək əsas məqsəddir**

SOCAR-dan verilən məlumata əsasən, layihənin əsas məqsədi qabaqcıl ağıllı qaz idarəetmə sistemi texnologiyalarının tətbiqi sayəsində Azərbaycan ərazisində qazın paylanması üzrə əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq, habelə “Azəriqaz”ın göstərdiyi xidmətlər üzrə müştəri və vətəndaş məmnunluğunu yüksəltməkdir.

Layihə 2,5 milyon “ağıllı” sayğacın quraşdırılması və sistemə dəstək mərhələləri nəzərə alınmaqla təxminən 14 illik dövrü əhatə edəcək...

Bax səh. 4




Bax səh. 6




Bax səh. 7

# Prezident Ağdam və Xocalıda

## İlham Əliyev: O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun!

### Ağdam Sənaye Parkında tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Ağdam Sənaye Parkı haqqında məlumat verdi.

Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın yaradılmasından məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Bunun nəticəsidir ki, Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkəmizdə mövcud sənaye zonaları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye parkıdır. Parkda ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Ağdam Sənaye Parkının ərazisinin 70 faizdən çoxu artıq sahibkarların istifadəsinə verilib. "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsinin açılması ilə Parkda fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatıb.

Qeyd edək ki, hazırda ölkədə 9 sənaye parkı var. Bunlar Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Naxçıvan, Hacıqabul, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır. Bununla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi yaradılıb.

Sonra "Tabaterra" MMC-nin direktoru Elman Cavanşir dövlətimizin başçısına müəssisə barədə məlumat verdi.

Bildirildi ki, Ağdam Sənaye Parkında 5,5 hektar ərazidə "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsi yaradılıb. Layihəyə 58 milyon manat investisiya yatırılıb. "Tabaterra" MMC öz məhsulları ilə yanaşı, "British American Tobacco", "Japan Tobacco International" və "Imperial Brands" şirkətlərinə məxsus beynəlxalq brendləri lisenziya əsasında istehsal edir. MMC-də 20-dən çox brend üzrə 120-dən artıq çeşiddə tütün məmulatı istehsal olunur. Almaniya, İtaliya və Böyük Britaniyanın qabaqcıl texnologiyalarının tətbiq edildiyi müəssisədə 9 istehsal xətti mövcuddur. İstehsal olunan məhsullar Birləşmiş Ərəb Əmirliklərinə, Gürcüstana, Özbəkistana və İraqa ixrac edilir. Hazırda "Tabaterra" MMC həm yerli, həm də "British American Tobacco" və "Japan Tobacco International" şirkətlərinə məxsus xarici brendlərin ixracını həyata keçirir.

Müəssisə sənaye parkının rezidenti kimi vergi, gömrük və digər güzəştlərdən faydalanır. Hazırda burada 400 nəfər çalışır. Şirkət 300-dək işçinin Ağdam şəhərinə köçürülməsini nəzərə alaraq, onların yaşayış təminatını qarşılamaq üçün "Ağdam Residence" yaşayış kompleksində 208 mənzilin alınmasına sərmayə yatırıb və əməkdaşların işlədiyi dövr ərzində ödənişsiz olaraq onların istifadəsinə verib.

Keçən ilin nəticələrinə görə, "Tabaterra" MMC qeyri-neft və özəl sektor üzrə qabaqcıl ixracatçı, eyni zamanda, qeyri-neft sektorunda ən iri vergi ödəyicisi olub.

Tütün əkininin və emalının həyata keçirilməsi məqsədilə təsis edilmiş "Tabaterra Leaf" MMC 2021-ci ildə "Azərtütün" ASC-nin özəlləşdirilməsinə dair investisiya müsabiqəsinin qalibi olub və infrastrukturun modernləşdirilməsi, yerli tütünün keyfiyyətinin artırılması məqsədilə 15 milyon manat məbləğində sərmayə yatırıb. "Tabaterra Leaf" MMC hazırda Şəki, Qax, Zaqatala, Balakən rayonlarının ərazisində tütün əkini və emalı ilə məşğul olur. Şirkətin tərkibində tütün qəbulu və emalı məntəqələri, istixanalar və illik istehsal gücü 3 min ton olan Tütün Emalı Zavodu mövcuddur. "Tabaterra Leaf" MMC tərəfindən 2027-ci ildən başlayaraq Qubadlı rayonunda 500 hektar ərazidə tütün əkini və emalı ilə əlaqədar lazımi infrastrukturun qurulması üçün əlavə investisiya yatırılması nəzərdə tutulur. "Tabaterra" MMC-nin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi layihələr iqtisadi fəallığın artırılmasına, sənayenin və kənd təsərrüfatının inkişafına, regionun ixrac potensialının artırılmasına, məşğulluğun təmin olunmasına töhfə verir. Bu layihələrin ümumi investisiya dəyəri 79 milyon manat təşkil edir.

### Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışı olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, bu təhsil ocağının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu ilin fevralında isə dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva burada aparılan tikinti işləri ilə tanış olublar.

Məktəbin binası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində inşa edilib. Binada 43 sinif, 16 inzibati otaq, 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzi, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hazırlıq otaqları, kitabxana, muzey, 352 yerlik yeməkxana fəaliyyət göstərəcək. Bundan başqa, məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 468 yerlik akt zalı və iki qapalı idman zalı, açıq havada futbol və basketbol meydançaları da müəllim və şagirdlərin ixtiyarına verilib.

Bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür. İstifadəyə verilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir.

### Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçası istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam şəhərində 1 nömrəli 160 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

Bu binanın da inşası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilib. Körpələr evi-uşaq bağçası binasının inşasına ötən ilin fevralında başlanılıb.

Bu ilin fevralında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binanın tikintisində işlərin gedişi ilə tanış olublar.

Məktəbəqədər təhsil müəssisəsinin binasında balacaların rahatlığının təmin olunması, həmçinin təlim-tərbiyə prosesinin yüksək səviyyədə aparılması üçün zəruri şərait yaradılıb. Binada oyun və yataq otaqları, musiqi, rəqs və idman zalları var.

İşğaldan azad olunmuş torpaqlarımızda əhalinin məskunlaşması ilə yanaşı, məktəbəqədər tərbiyə müəssisələrinin inşası istiqamətində ardıcıl işlər görülür. Belə layihələr, eyni zamanda, bu ərazilərdə icra edilən bərpa-quruculuq işlərinin tərkib hissəsi olmaqla da mühüm əhəmiyyət daşıyır.

### Ağdamın Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam rayonunun Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında iştirak edib.



Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Xatırladaq ki, 2021-ci il mayın 28-də Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olub.

Qeyd edək ki, Qiyaslı məscidi də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimizdən idi. Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı mal-qara tövləsi kimi istifadə edilən məscid binası ciddi dağıntılara məruz qalıb, dam örtüyü və günbəzlər tamamilə dağıdılıb.

Ağdam rayonu erməni işğalından azad edildikdən sonra 2022-ci ildən Qiyaslı məscidində bərpa işlərinə başlanılıb. Məscidin bərpası işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Bərpa layihəsi hazırlanarkən məscidin ilkin görkəmini qorumaq məqsədilə arxiv materiallarından və videoqrafik mənbələrdən istifadə olunub. İnteryerində mühafizə olunmuş burma pilləkən məscidin cənub tərəfində qoşa minarələrin mövcud olduğunu göstərirdi. Bu səbəbdən ənənəyə əsaslanaraq məscidin cənub divarında minarələr inşa edilib. Əyilmiş daş sütunlar xüsusi qurğular vasitəsilə bərpa olunub, daş tağlar və günbəzlər yenidən qurulub. Divarlarda ilkin görkəmini itirmiş və əsasən tökülmüş suvaq təmir olunub, yararsız hala düşmüş mehrab bərpa edilib. Fasad daşları xüsusi kimyəvi maddələrlə yuyulub, köhnə daşlar arasındakı tikişlər təmizlənib. Məscidin ətrafında köməkçi tikililər inşa olunub. Qiyaslı məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2001-ci ildən yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısındadır.

### Xocalının Təzəbinə kəndində...

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalının Təzəbinə kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub.

Dövlətimizin başçısı əvvəlcə kəndə köçən Məhəmməd Fərəcovun evinə baş çəkib.



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, kənddə 2025-ci ilin sonunadək ümumilikdə 197 fərdi ev hazır olacaq. Gələn il isə daha 159 fərdi evin təmir-tikintisi yekunlaşacaq. 2025-ci il iyulun 14-də 28 ailə - 125 nəfər yaşamaq üçün kəndə qayıdıb.

Hazırda kəndin müasir sosial infrastrukturunun qurulması istiqamətində işlər davam edir. Belə ki, 15,5 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa olunub, sayğaclaşdırma prosesinə başlanılıb, 11,4 kilometr uzunluğunda təbii qaz xətti çəkilib, 1,2 kilometr uzunluğunda mövcud xətt isə bərpa olunub. Həcmi 300 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 16 kilometr uzunluğunda rabitə xətti çəkilib və abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi üçün şərait yaradılıb. 3100 metr uzunluğunda kənddaxili yollara asfalt örtüyü salınıb, məktəbəqədər və ümumtəhsil müəssisələrinin binalarının təmir-bərpası istiqamətində hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulmuş bina əsaslı təmir edilir. Kənddə sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün bir hektar ərazisi olan müasir istirahət parkı yaradılıb.

Qeyd edək ki, Təzəbinə kəndi Xocalı rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində kənd işğaldan azad olunub.

### Xocalı kərpic zavodu açıldı




İyulun 18-də Prezident İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib.

Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur.

Zavod üçün əsas xammal mənbəyi Xocalı şəhərinin yaxınlığında yerləşən "Xocalı" gil yatağıdır. Müəssisənin sahəsi bir hektara yaxındır. Bundan əlavə, 6,5 hektar ərazi xammalın saxlanılması üçün ayrılıb.

Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentlərinə təqdim olunan bütün güzəşt və azadolmalardan yararlanacaq. İşğaldan azad edilmiş ərazilərdə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi bu ərazilərimizin iqtisadi potensialının reallaşdırılıması, biznes üçün əlverişli mexanizmlərin yaradılması, məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsi kimi məsələlərdə çox mühüm rol oynayır. Bu ərazilərimizdə investor və sahibkarlar üçün əlverişli şərait yaradılır. Ümumilikdə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sənayeləşmə siyasəti sistemli və ardıcıl şəkildə aparılır. Bu məsələdə isə texnoloji modernləşmə və innovativ istehsal sahələrinin artırılması əsas prioritetlərdəndir.

### Xanyurdu kəndində...



Prezident İlham Əliyev iyulun 18-də Xocalının Xanyurdu kəndində olub.

Dövlətimizin başçısı kəndə köçən sakinlər Rasim Cavadovun və Kərəm Abbasovun evlərində oldu.

Qeyd edək ki, Xanyurdu kəndi Xocalı rayonunun Ballıca kənd inzibati ərazi dairəsinə daxildir. Kənddə 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb.

Hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib, abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi təmin olunub. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumtəhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

Prezident İlham Əliyev Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşdü, onlarla söhbət etdi.

Prezident İlham Əliyev Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşdü, onlarla söhbət etdi.

Dövlətimizin başçısı deyib ki, həm Təzəbinə kəndində, həm də Xanyurduda şəraitlə tanış olub: "Biz iki gözəl kəndi demək olar ki, yenidən bərpa etdik və sizin sərəncamınıza verdik. Burada rahat yaşayın, xoşbəxt yaşayın, siz buna layiqsiniz. Siz uzun illər çətin şəraitdə yaşamısınız - çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə, orada-burada, çox çətin şəraitdə. Amma inamınızı itirməmisiniz. İnanırdınız ki, doğma Vətənə qayıdacaqsınız. O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun".

Sakinlər Prezidentə minnətdarlıqlarını bildiriblər.

# ASOSAI və ARABOSAI təşkilatlarının Birgə Toplantısının iştirakçılarına

Hörmətli Toplantı iştirakçıları!

Sizi - Ali Audit Orqanlarının Asiya Təşkilatına (ASOSAI) və Ali Audit Orqanlarının Ərəb Təşkilatına (ARABOSAI) üzv olan ali audit orqanlarının Azərbaycan Respublikası Hesablama Palatasının ev sahibliyi ilə Bakıda keçirilən Birgə Toplantısının bütün iştirakçılarını səmimi-qəlbdən salamlayır, Toplantının öz işinə başlaması münasibətilə təbrik edir və uğurlar arzulayıram.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2011-ci ildə qəbul edilmiş "Ali audit orqanlarının gücləndirilməsi vasitəsilə dövlət idarəçiliyinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının artırılması haqqında" və 2014-cü ildə qəbul edilmiş "Ali audit orqanları vasitəsilə dövlət idarəetməsinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının inkişaf etdirilməsi və gücləndirilməsi haqqında" qətnamələri dünya ictimaiyyətinin ali audit orqanlarına inamının artmasında və ictimai resurslardan səmərəli istifadə baxımından daha da yüksəldilməsində müstəsna əhəmiyyətə malikdir.

Toplantıda ASOSAI və ARABOSAI təşkilatlarına üzv olan əksər ali audit orqanlarının rəhbərlər səviyyəsində təmsil olunması, həmçinin Ali Audit Orqanları Beynəlxalq Təşkilatının (INTOSAI) Prezidentlik və Baş Katiblik təmsilçilərinin iştirak etməsi tədbirin yüksək statusunu göstərir.

Belə bir tədbirin ölkəmizdə keçirilməsini dövlət vəsaitlərinin istifadəsi zamanı səmərəliliyin, hesabatlılığın, nəticəliliyin və şəffaflığın artırılmasında Azərbaycanın ali audit orqanının fəaliyyətinin gücləndirilməsi üçün nümayiş etdirdiyimiz səylərin dəstəklənməsi kimi dəyərləndirirəm.

Bu gün iqtisadi, sosial və ekoloji tarazlığa nail olmaq üçün yeni mexanizmlərin tətbiqini, yerli və qlobal maraqların uzlaşdırılmasını, təbii resurslardan səmərəli istifadəni özündə ehtiva edən dayanıqlı inkişaf bəşəri önəm kəsb edir. Həmin çağırışlara effektiv və çevik reaksiya verilməsi qarşımızda məsuliyyət müəyyənləşdirməklə, maliyyə imkanlarının səfərbər olunmasını, onların qorunub saxlanılmasını, həmin resurslardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün nizam-intizamın möhkəmləndirilməsini, dövlət auditi institutlarının daha təkmil olmasını zəruri edir.

Bu baxımdan, dayanıqlı inkişaf və rəqəmsal iqtisadiyyata keçid şəraitində Toplantının hər iki mövzusu üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı müzakirəni təqdirəlayiq hesab edirəm. Belə ki, iqtisadi və sosial inkişafda və qlobal rəqabət mühitində üstünlüklərin əldə edilməsində süni intellekt texnologiyalarının inkişafı vacib rol oynayır. Süni intellekt dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirir. Süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlığın, elmi tədqiqatların gücləndirilməsi, innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilməlidir. Hesab edirəm ki, süni intellektin dövlət auditində tətbiqi auditin müstəqil nəzarət institutu kimi daha da inkişaf etməsinə və audit xidmətlərinin dayanıqlı inkişafına öz töhfəsini verəcək, bu sahədə mütərəqqi dünya təcrübəsinin öyrənilməsinə və tətbiqinə geniş imkanlar yaradacaqdır.

Toplantının ikinci mövzusu da olduqca əhəmiyyətlidir. İqlim dəyişikliklərinin təsirlərinin azaldılması və bu təsirlərə uyğunlaşmaq üçün fəaliyyətin davamlı olması böyük maliyyə vəsaiti tələb edir. Həmin vəsaitlərdən məqsədyönlü istifadənin, eləcə də şəffaflıq və hesabatlılığın təmin edilməsində isə ali audit orqanlarının iştirakı vacibdir. Azərbaycanın bu mövzu üzrə fəaliyyətlərə dəstək verməsi ötən il ölkəmizdə keçirilmiş mötəbər tədbirin - COP29-un timsalında bir daha təsdiq edilmiş oldu.

İnanıram ki, Toplantı iştirakçıları öz ölkələrində qazandıqları müsbət təcrübəyə arxalanaraq və ali audit orqanları arasında işgüzar əlaqələri gücləndirərək, ASOSAI və ARABOSAI təşkilatları arasındakı münasibətlərin daha yüksək səviyyədə bərqərar olmasına, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qətnamələrinin həyata keçirilməsinə nail olacaq və bütövlükdə dövlət auditi orqanlarının gələcək inkişafına dəyərli töhfələr bəxş edəcəklər.

Bir daha sizə xoş arzularımı yetirir və Toplantının işinə uğurlar arzulayıram.



**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Bakı-Aşqabad əlaqələrində yeni mərhələ...

## TDT çərçivəsində və ikitərəfli səviyyədə tərəfdaşlığın gücləndirilməsi həm bölgənin, həm də ölkəmizin inkişafına xüsusi dividendlər qazandırır



Azərbaycanın xarici siyasət prioritetləri sırasında türkdilli dövlətlər xüsusi yer tutur. Bu ölkələrlə əlaqələrin gücləndirilməsi, hətta müttəfiqlik səviyyəsinə çatdırılması ölkəmizin ən mühüm xarici siyasət hədəflərindən sayılır. Bu gün Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstanla yaxın qardaşlıq münasibətlərinin gücləndirilməsi, iqtisadi-siyasi əlaqələrin genişləndirilməsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində və ikitərəfli səviyyədə tərəfdaşlığın gücləndirilməsi həm bölgənin, həm də ölkəmizin inkişafına xüsusi dividendlər qazandırır.

Azərbaycan dəniz qonşusu olan Türkmənistan ilə də əlaqələrinin gücləndirilməsinə hər zaman maraq göstərib. Bu mənada, qarşılıqlı səfərlər, atılan addımlar və imzalanan sənədlər əlaqələrin yeni mərhələyə qədəm qoymasını şərtləndirib.

### Uğurlu əməkdaşlıq...

Qeyd edək ki, iyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə səfəri bu əlaqələrin daha da güclənməsinə təkan verəcək. Prezident İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovla görüşdə bildirib ki, bu səfər Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da güclənib: "Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət aparaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərimiz var və əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bu gün fikir mübadiləsi aparacağıq".

Qeyd edildiyi kimi, iki ölkə arasında tarixi əlaqələr mövcuddur. Eyni kökə malik, tarixin bir sıra məqamlarında hətta eyni dövlətə malik Azərbaycan və Türkmənistan sovet dönəmində də bu münasibətlərin inkişaf etməsinə çalışıblar. Əsasən kənd təsərrüfatı ölkəsi kimi tanınan Türkmənistan sonradan qaz ixracatçısı kimi də şöhrət tapdı. Həmin dövrlərdə Azərbaycan və Türkmənistan SSRİ-nin əsas karbohidrogen ehtiyatlarına malik respublikaları kimi tanınırdılar.

### Qarşılıqlı səfərlər əlaqələrin inkişafına müsbət tendensiya qazandırıb

Müstəqillik dövründə isə bu iki ölkə arasında 1992-ci ildə əsası qoyulan əlaqələr 1999-cu il iyunun 8-də Türkmənistanın Azərbaycanda səfirliyinin fəaliyyətə başlaması ilə davam etdi. Sonradan, 2001-ci il iyunun 4-də Türkmənistan tərəfi maliyyə problemlərini əsas gətirərək Azərbaycandakı səfirliyinin fəaliyyətinə müvəqqəti xitam versə də, 2008-ci ildə səfirlik yenidən fəaliyyətini davam etdirdi. 2002-ci ilin avqustunda isə Azərbaycanın Aşqabadda səfirliyi fəaliyyətə başlayıb. Nəzərə almaq lazımdır ki, Saparmurat Niyazovun hakimiyyəti dövründə iki ölkə arasında münasibətlər müəyyən qədər mürəkkəb olub. 2008-ci il mayında Türkmənistanın prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri bu canlanmanın əsas təkanvericisi rolunu oynadı. 2017-ci ildə edilən ikinci səfər isə əlaqələrin güclənməsində yeni bir mərhələ başlatdı. İki ölkənin fərqli strukturları arasında imzalanan sazişlər əlaqələrin inkişafında xüsusi rol oynadı. Bəli, ölkə başçılarının qarşılıqlı səfərləri ölkələr arasında münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı oldu. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin 28-29 noyabr 2008-ci il, 21-22 noyabr 2018-ci il, 10 oktyabr 2019-cu il tarixlərində Türkmənistana səfərləri baş tutub. Eləcə də, Prezidenti İlham Əliyev 28 noyabr 2021-ci ildə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Sammitində, 29 iyun 2022-ci ildə Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Toplantısında və 14 dekabr 2022-ci ildə Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirak etmək məqsədilə Türkmənistana işgüzar səfər edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov 19-20 may 2008-ci il, 18 noyabr 2010-cu il, 12 iyun 2015-ci il, 8-9 avqust 2017-ci il, 25 oktyabr 2019-cu il, 11 mart 2020-ci il tarixlərində ölkəmizdə səfərdə olub. Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov isə 2 mart 2023-cü ildə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə iştirak etmək məqsədilə Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.





Hər iki ölkə iqtisadi əməkdaşlıq, qarşılıqlı siyasi əlaqələr məsələlərini, energetika kompleksi, nəqliyyat kompleksi ilə bağlı məsələlərin müzakirəsi nəticəsində demək olar ki, bütün suallara cavab tapıb. Bu müsbət əlaqələr bu gün də davam etdirilir. İki ölkə arasında əlaqələrin inkişafında ən mühüm addımlardan biri də 21 yanvar 2021-ci il tarixində Aşqabad şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu"nun imzalanması oldu. Bununla bağlı Prezident İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirildi. Görüşdə Azərbaycanla Türkmənistan arasındakı siyasi dialoqun bugünkü yüksək səviyyəsindən, hər iki ölkənin beynəlxalq səviyyədə bir-birinə qarşılıqlı dəstək göstərməsindən məmnunluq ifadə olundu. Bildirildi ki, siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq hər iki dövlət öz imkanlarını təqdim edərək birgə səylərlə regional əməkdaşlığın möhkəmlənməsinə, Avrasiyanın nəqliyyat və enerji xəritəsinin yenidən formalaşmasına sanballı töhfələr verir.

### Enerji dialoqu: "Dostluq" yatağı yüksək tərəfdaşlıq nümunəsi kimi...

Xatırladaq ki, keçmiş SSRİ dövründə bu yataq Azərbaycanla Türkmənistanın dənizdəki sərhədinin tən ortasında yerləşdiyi üçün "Promejutoçnoe", yəni "Aralıq" adlandırılıb. "Dostluq" yatağı bizim neftçilər tərəfindən kəşf olunsa da, Azərbaycanla Türkmənistanın dənizdəki sərhədində yerləşdiyinə görə, uzun illər onun işlənməsi mümkün olmamışdı və məsələ ilə bağlı ardıcıl danışıqlar aparılmışdı.

### Qardaşlığa əsaslanan əlaqələr...

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov budəfəki səfəri ilə bağlı bildirib ki, səfərin əsas məqsədi ikitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul verməkdir. O bildirib: "Türkmənistan-Azərbaycan dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsini xarakterizə edərkən onları üç sözlə ifadə edərdim: qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq".

Həqiqətən də müstəqil Azərbaycanla müstəqil Türkmənistanı yaxınlaşdıran yalnız geosiyasi maraqlar, bugünkü reallıqlar və ortaq coğrafiya deyildir. İki ölkəni bir-birinə yaxın edən amillər tarixin dərin qatlarına bağlıdır. Həm Azərbaycan xalqı, həm də türkmən xalqı ortaq tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri bölüşürlər. Təsadüfi deyil ki, Türkmənistanla Azərbaycanın münasibətlərinə iki ölkə arasında mədəni-humanitar sahədə əməkdaşlıq xüsusi bir rəng qatır. Mütəmadi olaraq iki ölkənin yazıçılarının, şairlərinin, mədəniyyət xadimlərinin görüşləri keçirilir. Eləcə də Türkmənistanda Azərbaycan mədəniyyəti geniş şəkildə təbliğ olunur. Bu ölkənin xalqı milli musiqimizi, mahnılarımızı çox sevir və el şənliklərində səsləndirirlər. Qardaş ölkədə "Görkəmli adamların həyatı" seriyasından nəfis tərtibatla hazırlanmış "Heydər Əliyev" kitabı işığı üzü görüb və böyük oxucu auditoriyası qazanıb.

Öz növbəsində Azərbaycanda da zəngin türkmən mədəniyyətinə böyük maraq var. Bakıda Türkmənistan şairi Məhtumqulu Fraqinin yaradıcılığına həsr olunan konfranslar keçirilib. Türkmən müəlliflərinin əsərlərinin, o cümlədən Məhtumqulu Fraqinin "Seçilmiş əsərləri"nin, Mollanepesin "Mən bu diyara gəldim" kitabının, Nurməhəmməd Əndəlibin "Şeirlər, poemalar və dastanlar"ının, Sultan Hüseyn Baykarın "Divan"ının və digər müəlliflərin əsərlərinin Azərbaycan dilində nəşri oxucular tərəfindən böyük maraqla qarşılanıb.

Bütün bu faktlardan da göründüyü kimi, iki ölkəni və iki xalqı bir araya gətirən, yaxınlaşdıran dəyərlər, tarixi-mədəni bağlantılar kifayət qədər zəngindir, dil oxşarlığı çox yaxındır. Tarixdən gələn belə dərin oxşarlıq hər iki ölkənin və xalqın böyük sərvətidir. Prezident İlham Əliyev hər zaman bildirib ki, Türkmənistan-Azərbaycan əlaqələrinin təməlində xalqlarımızın birliyi, dostluğu, qardaşlığı dayanır.

### İki ölkə arasında geniş müqavilə-hüquq bazası mövcuddur...

Vurğulandığı kimi, Türkmənistan ilə Azərbaycan arasında istər xarici siyasətdə, istər siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə mühüm dialoq mühiti hökm sürür. Əlaqələr geniş əməkdaşlıq gündəliyinə istinad edir. Ölkələrin qarşılıqlı səyləri nəticəsində əməkdaşlıq əlaqələri məqsədyönlük və konkretlik qazanıb - münasibətlər sabit və davamlı xarakter alıb. Bunun əsas, həlledici amillərindən biri kimi ölkələrimizin liderləri arasındakı qarşılıqlı anlaşma və etimaddır.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov qeyd edib ki, Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir.

Vurğulandığı kimi, Azərbaycanla Türkmənistan arasında münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli platformalarda uğurla inkişaf edir. Azərbaycanla Türkmənistanın çoxtərəfli platformada daim bir-birinə dəstək nümayiş etdirmələri də yaxşı nümunədir. Hər iki ölkə BMT, İKT, MDB və digər beynəlxalq qurumlar çərçivəsində bir qayda olaraq konstruktiv mövqe ortaya qoyurlar və müxtəlif məsələlərdə bir-birlərinə dəstək olurlar.

İndiyədək Azərbaycanla Türkmənistan arasında müxtəlif istiqamətləri əhatə edən çoxsaylı sənədlərin imzalanması ölkələrimizin əlaqələrinin dinamikasına geniş hüquqi əsaslar yaradır. Qeyd edək ki, iki ölkə arasında indiyə qədər 100-ə yaxın sənəd imzalanıb. Onlardan ən mühümləri 2017-ci ilin avqustunda imzalanan Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamədir.

Bundan başqa, 28 noyabr 2008-ci ildə Aşqabadda Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında İqtisadi Əməkdaşlıq üzrə Azərbaycan-Türkmənistan Hökumətlərarası Komissiyası haqda Saziş imzalanıb və 4 mart 2009-cu ildə qüvvəyə minib. Komissiyanın sonuncu 7-ci iclası 28 noyabr 2023-cü ildə Aşqabad şəhərində keçirilib.

### Aşqabad Xankəndi Zirvəsində təmsil olunub...

Türkmənistan bu ilin iyulun 3-də Xankəndidə baş tutmuş İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci zirvə görüşündə də təmsil olunub. Rəsmi Aşqabadı tədbirdə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov təmsil edib. Tədbirdən öncə Prezident İlham Əliyev qonağı qəbul edib. Görüşdə azərbaycanlılarla türkmənlərin ortaq etnik kökləri, tarix və mədəniyyət bağlantılarına malik iki qardaş xalq olduğu bir daha vurğulanıb. Ölkələrimiz arasında energetika, nəqliyyat, mədəniyyət, humanitar, elm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparılıb. Xüsusilə Azərbaycanda Türkmənistan Mədəniyyət Günlərinin, Türkmənistanda isə Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsi qeyd olunub.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov çıxışında Xankəndi Zirvəsinə də toxunaraq, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin 17-ci Zirvə görüşünün bu yaxınlarda Xankəndi şəhərində uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edib.

**P.İSMAYILOV**

# Zərdabi ilə qurulan VƏTƏN məfkurəsi

Milli oyanışımızın əsasında dayanan, milli məfkurəmizin istiqamətini müəyyənləşdirən mətbuatın yaranış tarixi yarandığı zaman da, bu günün özündə də qürur və iftixar hissi ilə anılır. Bəli, 1875-ci ildə işıq üzü görən və bununla böyük işıq qaynağına çevrilən "Əkinçi" qəzeti Həsən bəy Zərdabinin direniş və müqavimət əzminin nəticəsi olaraq hasilə gəlmişdir. Qəzetin yarandığı ictimai-siyasi mühitin mənzərəsinə nəzər salsaq mürəkkəb və gərgin bir dönəmin varlığından söhbət açmalıyıq. Ölkədə ümmətçilikdən millətçiliyə gedən yolun konturları cızılmamışdı, milli birlikdən söhbət belə gedə bilməzdi. Amma oyanış üçün milli zəmin vardı. A.Bakıxanov, İ.Qutqaşınlı və M.Ş.Vazehdən başlanan dalğa böyük maarifçi M.F.Axundzadənin yaradıcı dühasında pöhrələnir, Qərblə Şərq arasında körpünün möhkəm, dayanıqlı əsası qurulurdu.

Bu oyanış əzmindən mənəvi qida alan Həsən bəy Zərdabi Azərbaycanda ilk Xeyriyyə Cəmiyyətini, 1873-cü ildə ilk milli teatrı yaratmasına baxmayaraq, xalqa xitab etməyin yolunu mətbuatın yaranmasında hiss edirdi. Maariflənməyə, mövhumat zəncirini elmin açarı ilə qırmaq əzminə inamını itirməyən Həsən bəyin inadı ona gətirdi ki, bu ağır yolçuluq sonucda milli şüur, milli tərəqqi, milli düşüncə hərəkatına çevrildi.

XIX əsrin sonlarında Mirzə Fətəli Axundzadənin Həsən bəy Zərdabiyə ünvanladığı məktubların birində belə fikirlər yer alırdı: "Əgər külli şəhər xalqı padşahlıq məktəbxanalarında oxusalar, yer tapılmaz. Deyəcəksən ki, şəhərlərdə məktəbxanalar bina edək... Çox yaxşı, şəhərlərdə məktəbxanalar açdıq, rus dilində elm öyrənməyə başladıq. Aya, ünas və kənd əhalimiz necə etsinlər? Kəndlərdə də məktəbxanalar açaq və müəllim gətirək, ya yox?.. Əgər deyirsən ki, kənd əhli qalsın, ancaq şəhər xalqı elm öyrənsin, onda sənin muradın əmələ gəlməz. Bir gül ilə bahar olmaz. Şəhər xalqı kənd əhlinə nisbətən qətrədir, dəryaya nisbət. Elmin mənfəəti o surətdə zahirdir ki, kaffeyi nas, Prus xalqı kibi və Yengidünya xalqı kibi ünasən və zükurən elmindən bəhrəyab ola... Sənin muradın o vaxtdan kamala yetər ki, bizim, hətta çobanlarımız da Prus çobanları kibi oxumaq, yazmaq biləlır və ünas tayfamız da oxumaq bilə".



ELNARƏ AKİMOVA,
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü,
Filologiya elmləri doktoru

Yəni, elə bir dövr gəlmişdi ki, ziyalılar Azərbaycanda maarif və məktəb şəbəkəsinin genişləndirilməsinin, xalqın savadlanmasının vacibliyini aydın dərk edirdilər və hər kəs əlində qələm bu yolda milli mücadiləyə atılmışdı. "Əkinçi"nin yaranmasına təkan verən amillər bunlar idi. Həsən bəy Zərdabi bütün dönəmlərdə bir amalı prioritetə çevirməyi bacardı: elmin və təhsilin, dərslik və oxu kitablarının ana dilində olmasına çalışdı, bunun üçün çabalar və mücadilələr etdi.



Bu gün bizim hamımızın işlətdiyimiz ədəbi və publisistik dil "Əkinçi"dəki dil normasına borcludur. Milli triadamızın banisi Əlibəy Hüseynzadə yazırdı ki, "bu şəxs bizim üçün dil yaratmışdır. Ədəbiyyata qapı açmışdır". Və yalnız ədəbi dilmi? Bu gün "Əkinçi" qəzetinin yeri və rolu, özündən sonra göstərmiş olduğu təsirin hüdudları Həsən bəy Zərdabinin siqlətli missiya daşıyıcısı olduğunu meydana qoyur. Ondan sonrakı dövrdə - xüsusilə, XX əsrin əvvəllərində milli ruh və idrak təəssübkeşliyimiz, müqavimət və direniş amalımızın qazanılmasında Zərdabi ideallarının nə qədər önəm kəsb etdiyi məlum məsələdir. Bu dövr həm də görk edir! XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaradan aydınlar mətbuatın, maarifin, oxumağın faydasını, elmlə ucalmağın zərurətini israrla ifadə edən mətnlərlə necə alovlu şəkildə çıxış etmiş, bunu konseptual olaraq yaradıcılıqlarının amalına çevirmişlər. Elm almaq, maariflənmək prosesi ardınca məfkurə xəttini gətirməli idi. Bunu böyük haqq işi uğrunda mücadiləyə atılan bütün milli münəvvərlər aydın dərk edirdilər. Zərdabi ilə qurulan vətən məfkurəsi sonradan pərvəriş tapan mətbuat orqanlarının hamısının ana xəttinə çevrildi. 1891-ci ildə "Kəşkül" qəzetində Azərbaycan adının milli kimlik məsələsi təsbit olundu, millətin adı ətrafında fikirlər səsləndirildi. "Tərcüman" qəzetində krımlı yazar İsmayıl Qaspıralı "Dildə, fikirdə, işdə birlik" məramı ilə türklərin ortaq problemlərinin qoyuluşunu hədəf götürdü. 1903-1905-ci illərdə "Şərqi-Rus" qəzetində Məhəmməd Ağa Şahtaxtlının rəhbərliyi ilə çalışan ziyalılar Şərq xalqlarının mövqeyini daim qorumağa çalışdılar. Ən böyük məfkurə dərsini isə 1905-1906-cı il aralığında çap olunan "Həyat" qəzeti verdi. Böyük ədəbi-mədəni coğrafiyanı ehtiva edən bu qəzetdə böyük ideoloq Əli bəy Hüseynzadənin qələmində təqdim olunan "Türklər kimdir və kimlərdən ibarətdir", eləcə də Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir və digər ədiblərin yazdığı məqalələrlə milli varlıq tanıdılmağa, milli triadamızın əsası qoyulmağa, milli kimlik fənni aşılanmağa başlandı və qəzet bağlandıqdan az sonra, elə həmin il işıq üzü görən "Füyuzat" jurnalı 32 sayı ilə cəmi bir il davam edən yaradıcı fəaliyyətində geriyə dönüşü mümkün olmayan azadlıq, şüur hərəkatına imza atdı. "Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, Avropa qiyafəli fədai", - deyən Əli bəyin çağırışı ardınca istiqlala aparan yolun mübarizkar, mətin milli fədailərini yetişdirdi. Bu, həm də M.F.Axundzadə və H.Zərdabi ilə başlanan yolçuluyun, millət və xalq fədailiyinin məntiqi sonucu, tarixi nəticəsi idi.

Bu mənada, millətin elmi, bədii və siyasi potensialını meydana qoyan "Əkinçi" qəzetinin xalqa qazandırdığı nə oldu, - xüsusunda sual edəndə bu iki amilin məxsusiliyini önə çəkmək lazım gəlir. İlk növbədə, milli şüurun formalaşması və milli dövlətçiliyin yaranması nemətini. Mirzəbala Məmmədzadə "Azerbaycan misaki-millisi" əsərində yazır ki, "Zənnimizcə, Mirzə Fətəli və Həsən bəy Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal tarixi, Azərbaycan istiqlal bəyannaməsi də 50 il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır".

Kim etiraf etməz ki, Azərbaycanda milli özünüdərk prosesinin təşəkkülü, Azərbaycanın dövlət müstəqilliyinin varlığı Azərbaycan mətbuatına borcludur. Dünya mədəniyyətinə çıxışımız da milli mətbuatın hesabına mümkün olmuşdur. Bu mənada, XX yüzilin əvvəllərində Azərbaycan mətbuatı həm ədəbiyyatın, həm də cəmiyyətin istiqamətini müəyyənləşdirir, milli şüurun, eləcə də estetik zövqün gəlişməsini təmin edirdi. O illərdə bizim siyasi müəyyənliyimiz, sərhədlərimiz, ordumuz, dövlətimiz olmadığı üçün bütün boşluqları, təbii ki, Azərbaycan mətbuatı doldururdu. Bu mənada, 1918-ci il, mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu deyil, XIX əsrin sonu XX əsrin əvvəlləri milli mətbuat səhifələrində davam edən siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsidir. Çünki həmin illərdə bizdə milli dövlətçilik ideyasının tarixi uzağa getməsə də, milli mənlik şüurunun yaranmasının aspektləri bədii-publisistik düşüncəyə söykənirdi. Digər bir məsələ, medianın əsas vəzifəsi informasiya ötürmək olsa da, o, hər şeydən əvvəl sağlam milli təsəvvürlərin gəlişməsini təmin etməlidir. Bu mənada xatırlatmaq xoşdur ki, bizim ilk mətbu orqanımız olan "Əkinçi"nin adı əslində, əkinçilik problemindən daha çox kültür, mədəniyyət, milli kimlik anlayışlarını ehtiva edirdi. Yaxud ötən əsrin əvvəllərində sırf estetik planda olan məsələlər, elə sırf estetik bir ünvanda intişar tapırdı. Məsələn, "Füyuzat" feyzlərin cəmi, daha doğrusu, estetik feyzlərin cəmi, toplusu demək idi və bu günkü cəmiyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin estetik əyarı elə ötən əsrin əvvəllərində həmin jurnal vasitəsi ilə yaradılırdı...

Sovet ideologiyasının hakimi-mütləq olduğu ilk dönəmlərdə mətbuat məfkurə xəttini qorumağa müvəffəq olmadı. Məlumdur ki, bütün çevrilişlər yalnız tarix hadisəsi kimi deyil, həm də düşüncə hadisəsi kimi təzahür edir. Sovet rejiminin də düşüncə hadisəsi olaraq lokal dövriyyəyə hesablanmış siyasi baxışları xalqı milli koloritindən, keçmişin milli-mənəvi sərvətlərindən, "xalq və mən" şüurundan uzaq salmağa yönəlmişdi. Biz bir millət, bir xalq kimi bütün bu fəci reallıqları şəxsi taleyimizdə yaşadıq. Millətimizi o taybu tay həsrətlisi edən mənfur irtica dünənimizdən bu günə, sələfdən xələfə, ziyalıdan xalqa gələn genetik kodları, üzvi və mənəvi bağları qırmaqdan çəkinmədi. Əlifbamız dəyişdirildi, milli-mənəvi sərvətlərimiz saxtalaşdırıldı, ictimai fikir öndərlərimizin irsi təhriflərə məruz qaldı. Üstəlik, 1937-ci ildə sovet rejiminin həyata keçirdiyi amansız repressiya dalğasında prosesin effektivliyinin və məhsuldarlığının artırılmasında mətbuatdan vintcik, təkərcik kimi istifadə etdi. Xüsusilə bu məqam, yəni həmin illərdə mətbuatın belə bir müdhiş hərəkatın donoruna çevrilməsi xalqın mətbuata, ziyalıya olan inamı arasında uçurum yaratdı.

Belə bir uçurum bir də 1970-ci illərin əvvəllərində aradan götürülməyə başladı. Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə bütünlükdə keçmişi "rekonstruksiya" işi, vulqar ideoloji konsepsiyaların güdazına getmiş mənəvi sərvətlərimizi mədəniyyət aləminə daxil etmək prosesi başlandı. Klassik irsimiz təbliğ olundu, tarixi yaddaşımız bərpa edildi, azərbaycançılıq ruhunun, türk əxlaqının millətə qaytarılması yönündə sistemli işlər həyata keçirildi. Bu işlər də onunla sonuclandı ki, 1991-ci ilin oktyabrında müstəqillik aktı imzalandı və Heydər Əliyev minillik dövlətçilik tariximizə milli məfkurəyə istinad edən yeni Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu.

Bu gün də Heydər Əliyev idealları, onun azərbaycançılıq ruhu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətçilik siyasətində qorunaraq xalqın və dövlətin şərəf tarixinin ifadəsinə çevrilməkdədir. Prezident İlham Əliyevin düşüncə tərzində və siyasi üslubunda qələmə hörmət, varislik haqqına tapınaraq yola çıxmaq məqamı aparıcı xətti təşkil edir. Bəlkə buna görə rəhbərlik etdiyi iyirmi iki illik zaman kəsimində ölkə başçısı İlham Əliyevin diplomatik səriştəsi sayəsində xalq öz milli kimliyindən ayrılmadı, keçmişindən qopmadı, dəyərlərini itirmədi, özünə, meyarlarına sadiqliyi qorudu. Milli məfkurə, suveren şüur, istiqlal ruhu İlham Əliyevin sədaqətlə qoruduğu ən böyük sərvət oldu.

**

Biz bugünkü imkan genişliyində peşəkarlıq, etika və məsuliyyət məsələlərində ehtiyatlı davranmalıyıq. Əsk təqdirdə ictimai etimad da, milli direniş də zəif qalacaq. Unutmayaq ki, mətbuat yalnız xəbər, informasiya ötürmək üçün bir vasitə deyil, milli ruhun, milli şüurun ayıq saxlanması üçün ən güclü arsenaldır.

Təəssüf ki, bir çox hallarda mətbuat bəzən sifarişli, yaxud dəqiq müəyyənləşdirilməmiş informasiyalar yayır. Müəyyən siyasi və ya iqtisadi dairələrin təsiri altında fəaliyyət göstərən media nümunələri az deyil. Bu da əlbəttə ki, ictimai etimadı zəiflədir.

Bizdə mətbuat azadlığı Konstitusiya ilə təmin olunub, müstəqil media qurumlarının fəaliyyətinə imkan yaradılıb. Sadəcə, media savadlılığını artırmaq, milli şüuru gücləndirmək lazımdır. Medianın savadlılığı oxucunun da maariflənməsi deməkdir. Daha peşəkar, dürüst ideoloji mövqeyi olan media qurumlarına üstünlük vermək prioritetə çevrilməlidir. Bu kontekstdə savadlı, səviyyəli media dilinin labüdlüyü məsələsini də unutmaq olmaz. Bəzən saytlarda, qəzetlərdə adi xəbər o qədər pinti dil və estetika ilə təqdim olunur ki, bunun qarşısını almaq üçün nəzarət mexanizmi işlənib hazırlanmalıdır.

**

22 iyul - Milli Mətbuat günü böyük əməl sahiblərinin bayramıdır! İstiqlala gedən yolda usanmadan xidmət göstərənlərin, milli kimliyin Var olması istiqamətində həyatını təhlükəyə atıb gələcəyə hədəflənən fikir və siyasi düşüncə adamlarının! Mətbuat vasitəsilə ürəklərə müqəddəs vətən eşqi aşılayanların! Məfkurədən müstəqilliyə gedən yolun aydını olanların!

Sözdən Vətən yaradanların yəni!

# 14 il, 2,5 milyon "ağıllı" sayğac və 480 milyon dollar investisiya

*Mübariz FEYİZLİ*

Hazırda dünyada cərəyan edən geosiyasi və geoiqtisadi proseslər fonunda enerji səmərəliliyinin artırılması hər bir ölkə üçün vacib çağırışlardan biri qismində çıxış edir. Enerji müstəqilliyini daha da möhkəmlətməyi hədəfləyən Azərbaycan da bu istiqamətdə dünyanın qabaqcıl şirkətləri ilə sıx əməkdaşlıq şəraitində davamlı olaraq müxtəlif layihələr həyata keçirir.

Bu günlərdə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyi və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Esyasoft Holding" şirkəti arasında ağıllı qaz şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında müqavilə imzalanıb. Ötən il Bakıda keçirilmiş COP29 çərçivəsində SOCAR-la "Esyasoft Holding" arasında imzalanmış əməkdaşlıq sazişinin davamı olan bu müqaviləni SOCAR prezidenti Rövşən Nəcəf, "Azəriqaz"ın baş direktoru Azər Məmmədov və "Esyasoft Holding"in baş icraçı direktoru Bipin Çandra imzalayıblar.

**Müştəri və vətəndaş məmnunluğunu yüksəltmək əsas məqsəddir**

SOCAR-dan verilən məlumata əsasən, layihənin əsas məqsədi qabaqcıl ağıllı qaz idarəetmə sistemi texnologiyalarının tətbiqi sayəsində Azərbaycan ərazisində qazın paylanması üzrə əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq, habelə "Azəriqaz"ın göstərdiyi xidmətlər üzrə müştəri və vətəndaş məmnunluğunu yüksəltməkdir.



Layihə 2,5 milyon "ağıllı" sayğacın quraşdırılması və sistemə dəstək mərhələləri nəzərə alınmaqla təxminən 14 illik dövrü əhatə edəcək. Bu dövr ərzində 480 milyon ABŞ dolları sərmayənin yatırılması nəzərdə tutulur. Bu sərmayə yaxın gələcəkdə şəbəkənin rəqəmsallaşdırılmasının, ağıllı təzyiq və temperatur sensorlarının quraşdırılmasının, "Rəqəmsal həllər laboratoriyası"nın (Digital Solutions Lab) yaradılmasının, əməkdaşların qabaqcıl texnologiyalar üzrə təliminin və beynəlxalq təcrübə mübadiləsinin təşkilinin, süni intellektin tətbiqi, məlumatların Hökumət buludunda yerləşdirilməsi ilə informasiya təhlükəsizliyinin təmin olunmasının, eləcə də müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulmasının mümkünlüyünə imkan verəcək.

İstehlakçılar daha dəqiq hesablama, real vaxt rejimində istifadə monitorinqi, problemlərin sürətli həlli, uzaqdan xidmət və rəqəmsal platformalar vasitəsilə istehlak məlumatlarına asan çıxış kimi üstünlüklər əldə edəcəklər.

**Rəsmən iqtisadi tərəfdaş olan ölkələr**

Son illərdə Azərbaycanla BƏƏ arasında iqtisadi sahədə əlaqələr dinamik inkişafdadır. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır.

Azərbaycan ilə BƏƏ arasında əlaqələrin inkişafında enerji sektorunun xüsusi rolu var. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən də "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Bununla bağlı mövcud potensialın reallaşdırılması, investisiya qoyuluşu "yaşıl enerji" sektorunun sürətli inkişafına yol açır. Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş külək enerjisi potensialı 157 qiqavata bərabərdir. Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələdə ölkənin elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30-40 faizə çatdırılması hədəf kimi qarşıya qoyulub.

2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Bu müqavilələr əsasında qurulan əməkdaşlıq çərçivəsində 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasının - Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulub. 2023-cü ilin oktyabrında istifadəyə verilən Qaradağ Günəş Elektrik Stansiyasının açılış mərasimində çıxışı zamanı dost Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycanın əlaqələrinin yüksək səviyyəsini bir daha vurğulayan Prezident İlham Əliyev deyib: "Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var".

Aralarında siyasi dialoqu və müxtəlif istiqamətlərdə əməkdaşlığı uğurla inkişaf etdirən Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri artıq rəsmən iqtisadi tərəfdaşdırlar. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Birləşmiş Ərəb Əmirliklərinə baş tutan işgüzar səfəri çərçivəsində Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə keçirilən görüş zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" (CEPA) imzalanıb. Sənəd gələcək çağırışlara cavab verən dayanıqlı, biliyə və innovasiyaya əsaslanan iqtisadiyyatın inkişafı üçün əhəmiyyətli baza yaradır.

# “Bizim həyət”in daha bir ünvanı

## IDEA mühüm missyanı yerinə yetirir...

*Yeganə BAYRAMOVA*

IDEA İctimai Birliyi sağlam gənc nəslin yetişdirilməsinə və əhalinin rifahının yaxşılaşdırılmasına, yaşıllıqların qorunmasına xüsusi önəm verir. Birliyin hər bir layihəsi gənc nəslin təşəbbüsü, iştirakı və rəhbərliyi ilə gerçəkləşir. Artıq 8 ildir ki, IDEA tərəfindən “Bizim həyət” layihəsi gerçəkləşdirilir.

Layihə çərçivəsində Bakıda onlarla həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib. Təsis edildiyi gündən Birliyin dəstəyi ilə ölkədə milyonlarla ağac əkilib.

**Növbəti ünvan...**



İyulun 17-də isə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə növbəti bina sakinlərin istifadəsinə verilib. Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli “AB” yaşayış sahəsindəki çoxmərtəbəli binada yerləşən çoxmərtəbəli binaları əhatə edən, 3500-dən çox sakinin yaşadığı həyət abadlaşdırılıb.

**Sağlamlıq imkanı məhdud şəxslər də diqqətdədir!**

“Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş bu həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb. Həyətdə bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb. Eyni zamanda, həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları yerləşdirilib, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ yeni ağaclar və mövsümi güllər, eləcə də kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən, havanın çirklənməsinin



qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək “yaşıl sədlər” yaradılıb.

**Rahat yaşam şəraiti üçün...**

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Bizim həyət” layihəsi 2017-ci ildən etibarən icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. “Bizim həyət” layihəsi çərçivəsində bu günədək 159 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

# Sülh sazişinin paraflanması kimə və nəyə lazımdır?

*Mübariz ABDULLAYEV*

Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhə yaxındırlar. Xüsusilə də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə baş tutan görüş ikitərəfli formatda aparılan danışıqların daha səmərəli olmasına inamı artırıb. Görüşə bağlı verilən rəsmi açıqlamalar təsdiqləyir ki, həm rəsmi Bakı, həm də İrəvan müzakirələrin bundan sonra da ikitərəfli formatda davam etdirilməsini məqbul sayırlar.



Əbu-Dabi görüşündən az sonra isə İrəvandan yekun sülh sazişinin paraflanmasının mümkünlüyü gündəmə gətirilib. Bu barədə Nikol Paşinyan keçirdiyi mətbuat konfransında danışıb. O bildirib ki, Azərbaycanla sülh sazişi imzalanmamışdan öncə paraflana bilər, bu məsələ Bakı və İrəvanın müzakirə masasındadır.

Bəli, beynəlxalq praktikada belə bir təcrübə var. Paraf və yaxud inisial imzadan adətən diplomatik sənədlərin imzalanmasında istifadə olunur. Burada söhbət hər hansı bir sənədin rəsmi və yaxud son imzalanmasından əvvəl onun səlahiyyətli şəxs tərəfindən ilkin olaraq imzalanmasından gedir. İmza kimi səlahiyyətli şəxsin adının, soyadının baş hərfləri qeyd olunur. Sənədlərin paraflanması adətən hansısa bir səbəbdən yekun imzalama mümkün olmadıqda, proses yubandıqda baş verə bilər. Yubanmaları şərtləndirən səbəblər aradan qaldırıldıqda isə sənəd artıq yekun imzalanmaya hazır olur.

Azərbaycanla Ermənistan arasında sülh sazişinin indiki mərhələdə paraflanmasını son məqsədə doğru taktiki addım kimi də dəyərləndirmək mümkündür. Sülh sazişinin 17 bəndi üzrə razılaşma əldə olunub, tərəflər uzun müzakirələrdən sonra ortaq məxrəcə gəliblər və bunu rəsmi qaydada bəyan ediblər. İndi bu razılaşmanın paraflanması və yaxud inisial imza ilə təsdiqlənməsi beynəlxalq ictimaiyyətə tərəflərin sülh istəyini bir daha nümayş etdirmiş olardı.

Bəs bu addımın atılması sülh prosesi üçün şərtdirmi? Sualı belə də qoymaq mümkündür: Sülh sazişinin paraflanması hansı tərəfə daha çox lazımdır? Əbu-Dabi görüşündən dərhal sonra N.Paşinyanın bu məsələni gündəmə gətirməsi təsadüfi deyil. Baş nazirin açıqlamasını, əslində, Ermənistanın manipulyativ səciyyə daşıyan “sülh sazişini bu gün imzalamağa hazırıq” siyasətinin başqa, daha cəlbedici görünən bir formada davam etdirilməsindən başqa bir şey deyil. Reallıqda sülh prosesi irəliləyir. Bu proses qalib Azərbaycanın təkidi ilə başlayıb və ölkəmizin səyləri sayəsində indiki mərhələyə çatdırılıb. Müharibənin qalib tərəfi olan Azərbaycan indiyədək sülhə sadiqliyini birmənalı şəkildə təsdiqləyib. Məhz rəsmi Bakının qətiyyətinin nəticəsidir ki, İrəvan əvvəllər tərəddüd etdiyi bəndləri sonradan razılaşdırmaq məcburiyyətində qalıb.

İndiki halda N.Paşinyanın özünün “sülh göyərçini” kimi təqdim etmək canfəşanlığı bir sıra amillərdən, o cümlədən də bilavasitə Ermənistandakı mürəkkəb daxili vəziyyətdən qaynaqlanır. Ölkədə Baş nazirə qarşı daxili müxalifətdən və xaricdən gələn həmlələr artıb. Hökumətlə kilsə, hakim komanda ilə revanşistlər arasında çatlar hər ötən gün daha da dərinləşir. N.Paşinyan belə bir ziddiyyətli şəraitdən avantajlarla çıxaraq gələn il keçirləcək seçkilərə daha üstün durumda getmək istəyir. Son illərdə Ermənistanda baş verənlər fonunda nüfuzunun əhəmiyyətli dərəcədə aşağı düşməsi N.Paşinyanı əndişələndirir. Belə bir vəziyyətdə sülh sazişinin razılaşdırlmış mətninin inisial imza ilə təsdiqlənməsi daxili auditoriyaya onun böyük uğuru kimi təqdim olunacaq ki, bu da hakim komanda üçün hava və su kimi lazımdır.

Azərbaycan hələlik N.Paşinyanın məlum açıqlamasına hansısa bir səviyyədə münasibət bildirməyib. Əslində, ölkəmizin mövqeyi bəllidir. Azərbaycan qalıcı sülh tərəfdarıdır. İmzalanacaq sənd də iki ölkə arasında davamlı sülh üçün hüquqi bazanı möhkəm şəkildə təmin etməlidir. Sazişin paraflanması mahiyyəti dəyişmir. Azərbaycan öz haqlı tələblərini dəfələrlə qarşı tərəfin və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Sülh sazişinin yekun imzalanması üçün Azərbaycanın iki mühüm şərti təmin olunmalıdır. Bunlardan birincisi respublikamıza qarşı ərazi iddialarını özündə ehtiva edən müddəaların yer aldığı Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbidir. Ortada dərin məntiqsizlik var. Bir tərəfdən N.Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirir, hətta bunu daha tez etmədiyinə görə təəssüfləndiyini deyir. Ancaq ölkənin əsas qanununa görə, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hələ də qüvvədədir.

Azərbaycanın ikinci şərti ATƏT-in Minsk qrupunun de-yure ləğvi ilə bağlıdır. Bu qurum keçmiş Dağlıq Qarabağ probleminin sülh yolu ilə tənzimlənməsi məqsədilə yaradılsa da, proseslərə hansısa bir töhfə vermədi. Azərbaycan problem özü həll etmək məcburiyyətində qaldı. Artıq Dağlıq Qarabağ problemi yoxdur. Deməli, Minsk qrupunun fəaliyyətinə də ehtiyac qalmayıb. Digər tərəfdən, hazırda Minsk qrupunda təmsil olunan ölkələr arasında ciddi ixtilaflar yaşanır. Bəs bu kimi reallıqlar fonunda “sülh istəyən” Ermənistan nə üçün ölü bir qurumun de-yure də ləğvi üçün müraciət ünvanlamağa tələsmir?

Beləliklə, aydın olur ki, sülh sazişinin paraflanması prinsipial mahiyyət daşımır-bunu etmək də olar, etməmək də. Əsas odur ki, tərəflər qalıcı sülh üçün çalışmalar ortaya qoysunlar.

# “Əkinçi”dən başlayan yol...

## 150 illik mətbuat tariximiz

Cəmiyyətimiz mötəbər bir tarixi günü qeyd etməyə hazırlaşır. Bir neçə gün sonra milli mətbuatımızın yaranmasının 150 illiyi böyük coşqu və sevinclə qeyd ediləcək. Bu coşqu və sevincin bir səbəbi milli mətbuatın 150 yaşının tamam olmasıdırsa, digər səbəbi belə bir əlamətdar hadisənin ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etmiş, regionun yeni güc mərkəzi kimi qəbul olunan Azərbaycan reallığında qeyd edilməsidir.

Milli mətbuatımız bu günə heç də asanlıqla gəlib çıxmayıb. Azərbaycan mətbuatı 150 il ərzində çətin və şərəfli inkişaf yolu keçib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır

### “Əkinçi” necə yarandı?

1875-ci il iyulun 22-də “Əkinçi” qəzetinin işıq üzü görməsi ilə Azərbaycan milli mətbuatının əsası qoyulub. Həmin vaxtdan indiyədək mətbuatımız cəmiyyətimizin maariflənməsində, milli kimliyimizin formalaşmasında, söz azadlığının təmin olunmasında misilsiz rol oynayıb.

Hələ XIX əsrin II yarısında dövlətimizin iqtisadi və ictimai inkişafındakı çatışmazlıqlar milli mətbuatımızın yaranmasını zəruri edirdi. Görkəmli ziyalı Həsən bəy Zərdabi də bu zərurəti dərk edərək uzun mübarizədən sonra ana dilində “Əkinçi” qəzetinin çap edilməsinə nail olub.

Təkcə bir faktı qeyd edək ki, Həsən bəy Zərdabi milli mətbuat orqanını təsis etmək üçün 15 ilə yaxın mübarizə aparmışdı. 1861-1865-ci illərdə Moskva Universitetinin Fizika-Riyaziyyat fakültəsində təhsil aldığı illərdə belə, Azərbaycan dilində qəzet nəşr etmək istəmişdi. Lakin onun təşəbbüslərinin qarşısı hər dəfə müxtəlif vasitələrlə alınmışdı.

Nəhayət, uzun və gərgin mübarizədən sonra 1875-ci ildə Zərdabi öz arzusuna çatdı və istədiyi qəzetin nəşri üçün Bakı qubernatorundan icazə aldı.




### Milli düşüncənin formalaşması...

Nəzərə almaq lazımdır ki, 19-cu əsrin sonu - 20-ci əsrin əvvəllərində Bakı təkcə Qafqazın iqtisadi deyil, həm də mədəni mərkəzinə çevrilmişdi. O zamankı Bakıda çoxsaylı rus, gürcü, erməni və digər xalqların xeyriyyə cəmiyyətləri, qəzetləri fəaliyyət göstərirdi. Bu qədər qarşıdurma və rəqabət şəraitində milli mətbuatı formalaşdırmaq, onu inkişaf etdirmək, azad söz üçün mübarizə aparmaq çox çətin idi. Etiraf etməliyik ki, o dövrdə “Əkinçi” milli mətbuatın yeni nəsli üçün bir mayak, bələdçi oldu.

Təsadüfi deyil ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda onun qurucularının demək olar əksəriyyəti yazarlar və mətbuat camiəsinin nümayəndələri idilər.

Sovet dönəmində mətbuat yalnız texniki baxımdan inkişaf etdi. Çünki 70 il ərzində bir dənə də olsun müstəqil mətbu orqanı fəaliyyət göstərmədi. Daha doğrusu, müstəqil mətbuatın fəaliyyətinə imkan verilmədi.

Buna görə də bütün media subyektləri partiya təşkilatlarının və dövlət qurumlarının orqanı kimi fəaliyyət göstərdi. Lakin senzuranın pik həddə olduğu SSRİ dönəmində belə əzmkar jurnalistlərimizin səyi ilə Zərdabi ənənələri unudulmadı...

### Cəmiyyətin əsas atributlarından biri

Media üçün azad söz mühitinin yaradılması, məlumat azadlığının olması hər dövr üçün xüsusi əhəmiyyət kəsb edir. Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir. Hər zaman dövlətimiz tərəfindən media orqanlarının sərbəst fəaliyyəti, jurnalistlərin söz və fikir azadlığının təmin edilməsi, mətbuat problemlərinin həlli istiqamətində təşəbbüs göstərilib, mühüm qərarlar qəbul edilib. 1999-cu ildə “Kütləvi informasiya vasitələri haqqında” Qanunun qəbul edilməsi, eləcə də 1998-ci ildə Azərbaycanda senzuranın ləğv olunması ilə bağlı Sərəncamın imzalanması mətbuatımızın tərəqqisi üçün ən böyük töhfələrindən hesab edilə bilər. Məsələn, bu il ölkə başçısının imzaladığı “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı da xüsusilə vurğulamaq olar.

### Müasir medianın çağırışları

21-ci əsr medianın həm imkanlarını, həm də məsuliyyətini artırıb. Süni intellektin yayılması, sosial şəbəkələrin təsiri, dezinformasiyanın sürətlə yayılması jurnalistin peşəkarlığını və məsuliyyətini daha da artırır. Mediamız bu çağırışlara uyğunlaşmalı, eyni zamanda, milli dəyərləri və peşə etikasını qoruyaraq fəaliyyət göstərməlidir. Əsas vəzifə-informasiyanı dəqiq, operativ və obyektiv şəkildə təqdim etməkdir. Cəmiyyətin informasiya ehtiyacını ödəmək, ictimai rəyə təsir etmək jurnalistikanın əsas funksiyası olaraq qalır.

*Yeganə*

# Qeyri-rəsmi görüş...

## BMT-nin qərargahında Kipr məsələsi tam çözülmədi

BMT-nin Nyu-Yorkdakı baş qərargahında Kipr məsələsinə dair 5+1 formatının qeyri-rəsmi görüşü keçirilib. Qeyd edək ki, görüşdə BMT baş katibi Antonio Quterreş, Türkiyənin xarici işlər naziri Hakan Fidan, Kipr prezidenti Nikos Hristodulidis və Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Ersin Tatar iştirak edib. Türkiyə KİV-lərinin məlumatına görə, A.Quterreşin vasitəçiliyi ilə baş tutan görüşdə tərəflər arasında əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb - adada yeni keçid məntəqələrinin açılması, minaların təmizlənməsi, ətraf mühit və iqlim dəyişikliyi, enerji layihələri və gənclərlə bağlı texniki komitələrin yaradılması ilə bağlı məsələlər əsas müzakirə predmenti olub. Görüşün sonunda adanın türk və yunan tərəfinin liderləri ilin sonunda eyni formatda daha bir qeyri-rəsmi toplantının keçirilməsi barədə razılığa gəliblər.






### A.Quterreş: Görüş konstruktiv keçib

Antonio Quterreş görüşdən sonra jurnalistlərə açıqlamasında müzakirələrin konstruktiv keçdiyini bildirib - o qeyd edib ki, budəfəki görüşdə tərəflər əvvəlki görüşlərdə razılaşdırılmış altı etimad tədbirinin icrasını nəzərdən keçiriblər. Baş katibin sözlərinə görə, artıq dörd məsələ barədə yekun razılaşma əldə olunub. "Müzakirələr konstruktiv keçdi. Hər iki lider mart ayında etimad yaratmaq üçün razılaşdıqları altı təşəbbüs üzrə irəliləyişi nəzərdən keçirib. Bu altı təşəbbüsdən dördünə nail olunub: gənclər üzrə texniki komitənin yaradılması, ətraf mühit və iqlim dəyişikliyi ilə bağlı təşəbbüslər, məzarlıqların bərpası və son texniki detallar müəyyən edildikdən sonra minaların təmizlənməsinə dair saziş də bağlanacaq. Yerdə qalan məsələlərin ikisi üzrə müzakirələr davam edəcək",- deyə A.Quterreş bildirib.

BMT rəhbəri bölünmüş adada dörd keçid məntəqəsinin və bufer zonada günəş enerjisindən birgə istifadə məntəqəsinin açılacağını da bildirib. Eyni zamanda, A.Quterreş əlavə edib ki, türk və yunan tərəfinin liderləri yeni təşəbbüslər - hər iki tərəfdən vətəndaş cəmiyyətlərinin dialoqda iştirakı, mədəni artefaktların mübadiləsi, o cümlədən havanın keyfiyyətinin monitorinqinin yaxşılaşdırılması və mikroplastik çirklənmənin aradan qaldırılması üçün məsləhətçi orqan yaradılması barədə ümumi anlaşma əldə ediblər. Baş katib, həmçinin sentyabrda BMT Baş Assambleyasının yüksəksəviyyəli həftəsində hər iki liderin növbəti qeyri-rəsmi görüşünün keçiriləcəyini də deyib: "Qarşıda uzun bir yol var. Gələcəyin bütün kiprlilər üçün nə demək olduğunu düşünmək vacibdir. Lakin bu addımlar irəliyə doğru gedən yolda dialoqun davam etdirilməsi və bütün kiprlilərin xeyrinə olan təşəbbüslər üzərində işləmək öhdəliyini açıq şəkildə nümayiş etdirir".

### Görüş türk tərəfini qane etməyib

Görüşün nəticələri ilə bağlı "Report"un ABŞ bürosuna açıqlama verən ŞKTR-nin Prezidenti Ersin Tatar BMT Baş katibinin dediklərinin əksinə olaraq müzakirələrin konstruktiv keçmədiyini bildirib - dövlət başçısı, deyib ki, əsas müzakirə mövzularından biri olan yeni keçid məntəqələrinin açılması məsələsində tərəflər ortaq məxrəcə gələ bilməyiblər: "Bu gün burada tərəflər arasında əməkdaşlıq, xalqlarımızın xeyrinə görülə biləcək işlər, ətraf mühit, enerji mövzuları müzakirə olundu. Dörd yeni keçid məntəqəsinin açılması gündəmdə idi. Təəssüf ki, bu baş tutmadı. Yunan tərəfi keçid məntəqələrinin yalnız buffer zonası üzərindən salınmasında israr etdi. Lakin biz bildirdik ki, bufer zonasında yol salınması doğru deyil. Çünki bu, gələcəkdə həmin əraziləri Yunan torpağı kimi göstərmək cəhdlərinə səbəb ola bilər. Bu isə həm hərbi, həm də təhlükəsizlik baxımından risklidir. Biz dedik ki, əgər türk tərəfində yol çatışmazlığı varsa (təxminən 5 km), bu yolu biz çəkə bilərik. Bu, ən məqbul və təhlükəsiz həll yolu olardı. Amma təəssüf ki, qarşı tərəf razılaşmadı və yalnız bufer zonası üzərindən keçid tələb etdi. Bu səbəbdən razılıq əldə olunmadı və dörd keçid məntəqəsinin açılması mümkün olmadı".

### Kipr türklərinin hüquqları tanınmalıdır

Məsələ ilə bağlı politoloq İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Kiprdəki mövcud vəziyyət ədalətli və beynəlxalq hüququn normallarına uyğun şəkildə nizamlanmalıdır. "Artıq 50 ildən çoxdur ki, Kipr münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesi davam edir. Demək olar ki, müxtəlif formatlar çərçivəsində saysız-hesabsız danışıqlar aparılıb. Təəssüflər olsun ki, bu günə qədər Kipr adasındakı türk xalqının hüquqlarına hörmət olunmayıb və onların öz müqəddəratını təyinetmə hüququ tanınmayıb. Halbuki beynəlxalq hüquqa əsasən, bu, Kipr türklərinin haqqıdır. Onilliklər ərzində BMT-nin, həmçinin bəzi dövlətlərin vasitəçiliyi ilə türk və yunan tərəfi arasında aparılan danışıqlarda müxtəlif həll variantları irəli sürülüb. Halbuki bu həll variantların heç biri müsbət nəticə verməyib və ya məqsədyönlü şəkildə fiaskoya uğradılıb. Xüsusilə qeyd edim ki, 2002-2003 - cü illərdə Kiprdə türklərin və yunanların hüquqlarını bərabər şəkildə təmin edən federal bir dövlətin əsasının qoyulması üçün BMT-nin sabiq baş katibi Koffi Annan tərəfindən həll planı irəli sürüldü. Belə bir təşəbbüs Kiprdə daha sabit və təhlükəsiz vəziyyətin formallaşması üçün xüsusi əhəmiyyət kəsb edirdi. Lakin türk tərəfindən fərqli olaraq, yunan tərəfində keçirilən referendumda əhalinin böyük əksəriyyəti BMT-nin həll variantının əlehinə səs verdilər. Nəticə etibarı ilə bu variant da baş tutmadı", - deyə İ.Hüseynov vurğulayıb. Ekspert əlavə edib ki, Kipr probleminin həllinə düzgün hüquqi qiymət verilmir: "Yunan tərəfinin müstəqiliyyinin tanınması və Avropa İttifaqına üzv qəbul edilməsi ayrı-seçkiliyin və ikilistandartlı siyasətin bariz nümunəsidir. Bu, danışıqlar prosesinin dalana dirənməsinə gətirib çıxardı. Hesab edirəm ki, Şimali Kipr Türk Respublikasının, eləcə də adadakı türk xalqının hüquqları və imtiyazları tanınmalıdır".

*Yunis ABDULLAYEV*

# Yeni hökumətin qarşısında mühüm vəzifələr dayanır

## Müharibə şəraitində olan Ukrayna öz iqtisadiyyatını dirçəldə biləcəkmi?





Ukrayna Ali Radası yeni hökuməti təsdiqləyib. Hələ bu ayın əvvəllərində yerli media baş nazir Denis Şmıqalın istefaya göndəriləcəyi anonsunu vermişdi. Bütün bunlar öz təsdiqini tapdı. İyulun 16-da Ali Rada baş nazir Denis Şmıqalın istefasını təsdiqləyib. Bu posta isə hökumətdə iqtisadiyyat naziri vəzifəsini daşıyan Yuliya Sviridenko seçilib. Qeyd edək ki, bununla da Ukraynanın müstəqillik tarixində ikinci dəfə qadın baş nazir seçilib. 39 yaşlı yeni baş nazir əslən Çerniqov şəhərindəndir. Karyerasına Çerniqov vilayət administrasiyasından başlayıb.

### Yeni hökumətdə kimlər var?

Ali Rada baş nazir Yuliya Sviridenkonun rəhbərliyi altında Nazirlər Kabinetinin yenilənmiş tərkibini də təsdiqləyib. Müvafiq qərarı 253 deputat dəstəkləyib. Belə ki, Mixail Fedorov baş nazirin birinci müavini-rəqəmsal transformasiya naziri, Aleksey Sobolyev iqtisadiyyat, ətraf mühit və kənd təsərrüfatı naziri, Svetlana Qrinçuk isə energetika naziri təyin edilib. Taras Kaçka Baş nazirin Avropa və Avro-Atlantik inteqrasiya məsələləri üzrə müavini təyin edilib.

Bir sıra nazirlər isə öz vəzifələrində qalıblar. Ukrayna Ali Radası Andrey Sibiqanın xarici işlər naziri vəzifəsinə yenidən namizədliyini təsdiqləyib. O, 2024-cü il sentyabrın 5-dən xarici işlər naziri postunu tutub. Aleksey Kuleba baş nazirin müavini - infrastruktur və ərazilərin inkişafı naziri, İqor Klimenko daxili işlər naziri, Viktor Lyaşko isə səhiyyə naziridir.

### Şmıqal müdafiə sahəsində böyük təcrübəyə sahibdir

Baş nazir postundan istefa verən Denis Şmıqal isə müdafiə naziri təyin edilib. Prezident V.Zelenski qeyd edib ki, D.Şmıqalın müdafiə naziri olmasını istəyir, çünki o, müdafiə sahəsində faydalı olacaq böyük təcrübəyə malikdir. Zelenski keçmiş müdafiə naziri Rüstəm Umerovu isə Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi təyin edib. Ali Radanın iclasında çıxış edən dövlət başçısının sözlərinə görə, hökumətin tərkibinin yenilənməsi ölkəni gücləndirməli və ABŞ ilə əməkdaşlığın yeni mərhələsini açmalıdır.

Prezident Müdafiə Nazirliyinin yeni rəhbərinin qarşısında duran prioritet vəzifələrdən birinin silah istehsalında ölkənin payının artırılması olduğunu deyib. O deyib ki, cəbhədə istifadə olunan silahların təxminən 40 faizi Ukrayna istehsalıdır və bu rəqəm yeni hökumətin fəaliyyətinin altı ayı ərzində 50 faizə çatdırılmalıdır.

Ukraynanın yeni baş naziri Yuliya Sviridenko isə Prezident Zelenskiyə göstərdiyi etimada görə təşəkkür edib və ölkə tarixinin indiki ən mühüm anlarında dövlətə ləyaqətlə xidmət etməyə hazır olduğunu deyib. Onun sözlərinə görə, xüsusi diqqət müdafiə və təhlükəsizlik qüvvələrinin təminatına, eləcə də dövlətin dayanıqlılığının gücləndirilməsinə yönəldiləcək. "Dövlət aparatının ölkəmizin resurslarını və potensialını israf etməyə haqqı yoxdur", - deyə o, Ukraynanın Avropanın ən güclü iqtisadiyyatları sırasında yer almağa layiq olduğunu söyləyib.

Sviridenko: Yeni hökumətin prioriteti ordunun keyfiyyətli təminatıdır

Sviridenko əlavə edib ki, ukraynalılar daha aydın sosial dəstək alətləri almalıdırlar və hər bir hərbçi, veteran dövlət tərəfindən konkret və nəzərəçarpacaq hörmət görməlidir. O, həmçinin qeyd edib ki, baş nazirin təyinatı ilə bağlı qərarı Ali Rada verir və hökumət parlamentlə qarşılıqlı əlaqə saxlamağa və müvafiq addımları təqdim etməyə hazırlaşır.

Müdafiə məsələlərinə gəlincə, baş nazir xüsusi vurğulayıb ki, Ukraynanın yeni hökumətinin ilk altı ayda prioriteti ordunun keyfiyyətli təminatı, silah istehsalının artırılması və Ukrayna ordusunun texnoloji səviyyəsinin yüksəldilməsidir: "İlk altı ay ərzində işləyəcəyimiz ilk prioritet Ukrayna iqtisadiyyatının özünü təmin etməsini təmin etmək üçün maksimum səy göstərməliyik. Mən bundan sonra da öz missiyamı Ukrayna istehsalçısının dəstəklənməsində görürəm. Biz Ukrayna sahibkarlarını dəstəkləmək üçün buna bənzər sürətli və hiss olunan addımlar atmaq üçün bütün səylərimizi göstərəcəyik. Söhbət kompleks tənzimləmənin davam etdirilməsindən, biznesə qanunsuz təzyiqin dayandırılmasından, özəlləşdirmənin sürətləndirilməsindən və effektiv dəstək mexanizmlərinin davam etdirilməsindən gedir".

Bir sıra ekspertlər hesab edirlər ki, mövcud sosial-iqtisadi problemlər, müharibənin uzun müddət davam etməsi və cəbhə xəttində əldə olunan nəticələrin ictimai gözləntiləri tam qarşılamaması səbəbilə cəmiyyətdə artan narazılıq fonunda, yeni hökumət formalaşdırmaq məsuliyyətin bölüşdürülməsi və siyasi məsuliyyətin təzələnməsi məqsədi daşıyır. Digər tərəfdən, bu dəyişiklik Ukraynanın xarici siyasət kursunda ciddi dəyişikliklərə səbəb olmayacaq. Zelenski administrasiyası əsas qərarları əvvəlki kimi öz nüvəsində formalaşdırmağa davam edəcək. Lakin yeni hökumət daha çevik iqtisadi siyasət yürüdərək beynəlxalq tərəfdaşlarla - xüsusilə Avropa İttifaqı və ABŞ ilə əməkdaşlığı dərinləşdirməyə çalışacaq. Xüsusən, müharibədən sonrakı bərpa və investisiya proqramlarında hökumətin yeni simalarla fəaliyyət göstərməsi imic baxımından daha əlverişli ola bilər.

*N.BAYRAMLI*

# 80 ildən sonra...



## "Kensinqton Müqaviləsi" Britaniya və Almaniya arasında əlaqələri gücləndirəcək

Böyük Britaniyanın Baş naziri Kir Starmer və Almaniya Kansleri Fridrix Merts iyulun 17-də Londonda müdafiə və miqrasiya sahəsində mühüm saziş imzalayıblar. Xarici işlər nazirləri Devid Lemmi və Yohan Vadefulun da qatıldıqları imzalanma mərasimi Viktoriya və Albert Muzeyində baş tutub. "Kensinqton Müqaviləsi" adlanan bu sənəd 1945-ci ildə İkinci Dünya müharibəsinin başa çatmasından bəri Böyük Britaniya ilə Almaniya arasında imzalanan ən böyük saziş kimi qiymətləndirilir.

### Müqavilə müdafiə və miqrasiya sahəsində əməkdaşlığı nəzərdə tutur

İmzalanmadan sonra Kansler və Baş nazir Daunin Stritdə bir araya gəliblər. Dauninq Stritdən verilən açıqlamaya görə, Almaniya bu ilin sonunadək qanunvericiliyini sərtləşdirərək Britaniyaya qeyri-qanuni miqrant axını təşkil edən cinayətkar şəbəkələrə qarşı tədbirləri gücləndirəcək.

"Kensinqton müqaviləsi" adlanan sənəd müdafiə, miqrasiya və strateji əməkdaşlıq kimi əsas sahələri əhatə edir. Böyük Britaniyanın Baş naziri K.Starmer vurğulayıb ki, bu, hazırkı şəraitdə iki ölkə arasındakı münasibətlərin yaxınlığını və daha sıx əməkdaşlıq üçün ambisiyaları əks etdirir. Yeni saziş, xüsusilə, birgə istehsal olunan hərbi avadanlığın ixracını asanlaşdıracaq. Baş nazirin sözlərinə görə, saziş sadəcə bəyannamə deyil: "Bu, ölkələrimizin nə qədər yaxın olduğunu və gələcək üçün birgə planlarımızın nə olduğunu göstərən tarixi sənəddir. Bu qeyri-sabitlik dövründə ölkələrimiz və hökumətlərimiz arasında sıx münasibətlər xüsusilə vacibdir".

Almaniya Kansleri F.Merts isə bildirib ki, "Kensinqton müqaviləsi"ni imzaladıqdan dərhal sonra bunun İkinci Dünya Müharibəsindən bəri Britaniya və Almaniya arasında ilk müqavilə olduğunu öyrəndikdə "təəccüblənib". "Siz Avropa İttifaqında idiniz və biz düşünürdük ki, bu kifayətdir. Amma indi başa düşürük ki, bu, kifayət deyil, ona görə də bu istiqamətdə daha çox iş görməliyik", - Almaniya Kansleri Fridrix Merts belə bir sazişin imzalanmasını Almaniya-Britaniya münasibətləri üçün tarixi gün adlandırıb.

### İki ölkəni Rusiya təhlükəsi birləşdirir?

Sənədin geosiyasi vəziyyətdə köklü dəyişikliklər və Rusiya təhlükəsi ilə əlaqədar iki ölkə arasında strateji tərəfdaşlığı da nəzər tutduğu qeyd olunur. Qeyd edək ki, Böyük Britaniya ilə Almaniya arasındakı münasibətləri effektiv, amma səssiz bir ittifaq kimi qiymətləndirmək olar. Lakin 2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsindən sonra münasibətlər sürətlənib, "Brexit"dən sonra intensivləşib və Rusiya-Ukrayna müharibəsi ilə yeni mərhələyə qədəm qoyub. Bu canlanmaya baxmayaraq, siyasi faktorlar, geosiyasi təhdidlərə dair müxtəlif qavrayışlar və fərqli strateji mədəniyyətlər indiyədək münasibətləri konkret şəkildə dərinləşdirmək üçün tam yetərli olmayıb.

Xatırladaq ki, hər iki ölkənin müdafiə nazirləri ötən il oktyabrın 23-də Britaniya-Almaniya hərbi əməkdaşlığında yeni səhifə açan müdafiə sazişi imzalamışdılar. "Trinity House" Müqaviləsi də Avropanın ən yüksək müdafiə xərclərini ödəyən iki dövləti arasında əlaqələrin dərinləşməsinə təkan verir, hava, quru, dəniz, kosmos və kiber olmaqla, diqqəti bütün sahələrdə hərbi əməkdaşlığın artırılmasına yönəldir. NATO və Avropanın təhlükəsizliyi üçün mühüm addım olan bu təşəbbüs hər iki ölkənin kollektiv müdafiə qabiliyyətinin gücləndirilməsi baxımından kritik məzmun kəsb edir. Müqavilə müxtəlif formalarda əməkdaşlığı nəzərdə tutur. İlk növbədə, NATO-nun Baltikyanı ölkələrdə şərq cinahının gücləndirilməsinə diqqət yetirilib, Rusiyanın mümkün hücumuna qarşı daha ardıcıl və effektiv çəkindiricilik məqsədilə Britaniya və Almaniya orduları arasında birgə təlimlər keçirilir. İki ölkə logistika, anbar və tədarük imkanlarını bölüşərək, əməliyyat səmərəliliyini artırmağı hədəfləyib.

### NATO müttəfiqləri kimi...

"Kensinqton Müqaviləsi"nin imzalanması isə bu istiqamətdə əlaqələri daha da gücləndirəcək. İki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq mövcuddur. Bu əməkdaşlığa uzun mənzilli raketlər, pilotsuz uçuş aparatları və yeni nəsil döyüş təyyarələri kimi insanlı platformalar və oxşar məhsullar daxildir. Həmçinin Avropa müdafiə sistemlərinin hərbi texnologiyanın ən qabaqcıl səviyyəsində qalmasını təmin etmək üçün işlərin digər müttəfiqlərlə sıx koordinasiyada aparılacağı vəd edilir.

Son zamanlar artan təhdidlər nəticəsində Avropa İttifaqı həm struktur, həm də üzv dövlətlərin müdafiə qabiliyyətini yeni qurumlar, qərarlar və vəsaitlərlə artırmağa çalışır. Bununla belə, bütün bu xərclərin müdafiə mexanizmini gücləndirməsində siyasətçilərin "güclü əli" yoxdur. Buna görə də Avropa hökumətləri regionda hərbi cəhətdən güclü müttəfiqlərlə daha çox işləmək istəyir. Ancaq Aİ iki ən böyük müdafiə büdcəsindən birinə sahib olan üzv dövlətin ayrılmasından təsirləndi. "Brexit"dən sonra hamı razılaşır ki, Aİ və onun üzv dövlətlərinə təsir edən müdafiə problemi birbaşa Britaniyanın milli maraqlarına təsir edəcək və eyni şey əksinə də baş verəcək. Digər tərəfdən, Avropada artan təhlükəsizlik müzakirələri və Donald Trampın Ağ Evə qayıdışının NATO-ya və xüsusən də Ukraynadakı müharibəyə təsiri Avropanın öz müdafiəsi üçün daha çox məsuliyyət daşıması çağırışına səbəb olub. Britaniyasız isə Avropa İttifaqının müdafiə siyasəti nisbətən zəif görünür. Bununla belə, tərəflərin NATO müttəfiqləri olduğunu nəzərə alsaq, Almaniya-Britaniya əlaqələri yeni müqavilə əsasında daha da inkişaf edəcək.

*Nardar BAYRAMLI*

# 18-ci paket təsdiqləndi

## Rusiyaya qarşı yeni sanksiyalarda nələr var?

Avropa İttifaqına (Aİ) üzv ölkələr Rusiyaya qarşı 18-ci sanksiyalar paketini qəbul ediblər. Qeyd edək ki, 18-ci sanksiyalar paketi Slovakiyanın razılıq verməməsi səbəbindən indiyədək qəbul edilməmişdi. Slovakiya sanksiyalara razılıq vermək üçün Avropa Komissiyasının Rusiya qazına idxal qadağası planı nəticəsində iqtisadi zərər yaranacağı təqdirdə, bunun kompensasiya olunmasına dair vəd tələb edirdi. Avropa Komissiyası bu tələblərin yerinə yetirildiyini açıqlasa da, Slovakiyanın Baş naziri Robert Fitso bu vədləri kifayət qədər inandırıcı saymamışdı. O, bəyan etmişdi ki, ölkəsi üçün istisna maddəsinin tətbiqi ən doğru yol olardı. Bu istisna Slovakiyaya Rusiyanın "Qazprom" şirkəti ilə imzaladığı mövcud müqaviləni 2034-cü ilədək qüvvədə saxlamağa imkan verməlidir.

### Slovakiya güzəştlər qarşılığında razılıq verib

Daxili müzakirələrdən sonra Slovakiya yeni sanksiyaların təsdiqlənməsinə "yaşıl işıq" yandırdı. İyulun 17-də ölkənin Baş naziri Robert Fitso "Facebook" sosial şəbəkəsində yayılmış videomüraciətində "Mən Avropa İttifaqındakı nümayəndəlorimizə 18-ci sanksiyalar paketinə yol açmaq üçün təlimat verirəm", - deyə bəyan edib. Fitso qeyd edib ki, Rusiyaya qarşı yeni sanksiyaları bloklamağa davam etmək Avropa Komissiyası ilə enerji resursları üzrə danışıqlar kontekstində əks-məhsuldar addım olar.

Xarici KİV-lərin yazdığına görə, Avropa İttifaqının Rusiyaya qarşı yeni sanksiyalarının qəbul edilməsini ləngidən Slovakiya "güzəştlər"dən sonra buna razılıq verib. Bildirilir ki, Slovakiyanın vetosu sanksiyalar paketinin qəbul edilməsini ləngidirdi, lakin sonradan Bratislavanı əmin ediblər ki, Rusiya qazının idxalına tam qadağa planı yeni sanksiyalar paketinə uyğun şəkildə həyata keçirilərsə, o, ağır iqtisadi və maliyyə nəticələrindən narahat olmaya bilər. KİV-lərin məlumatına əsasən, Slovakiyanın Baş naziri Robert Fitso planın qarşısını ala bilməyəcək, çünki onunla bağlı qərarlar sanksiyalardan fərqli olaraq səs çoxluğu ilə qəbul edilir.







### Kaya Kallas məmnun görünür

Avropa İttifaqının ali nümayəndəsi Kaya Kallas isə "X" sosial şəbəkəsindəki hesabında Rusiyaya qarşı ən sərt sanksiyalardan birini təsdiqləndiyini yazıb: "Biz Kremlin hərbi büdcəsini azaltmağa davam edirik, kölgə donanmasının daha 105 gəmisini, onların köməkçi vasitələrini siyahıya daxil edir və Rusiya banklarının maliyyələşməyə çıxışını məhdudlaşdırırıq".

Onun sözlərinə görə, sanksiya siyahısına Rusiyanın "Şimal axını" qaz kəmərləri və Hindistandakı "Rosneft" neft emalı zavodu daxil edilib. "Şimal axını" qaz kəmərləri qadağan ediləcək. Biz Rusiya hərbi sənayesinə, sanksiyalardan yan keçməyə imkan verən Çin banklarına getdikcə daha çox təzyiq göstəririk və pilotsuz uçuş aparatlarında istifadə olunan texnologiyaların ixracına mane oluruq", - deyə Kallas bildirib.

Qeyd edək ki, Rusiyaya qarşı yeni sanksiya paketi çərçivəsində Avropa İttifaqı sanksiyalardan yan keçməyə görə daha 26 şirkəti məhdudlaşdırıcı tədbirlər siyahısına daxil edib. Bu barədə "Euroactiv" nəşri Aİ Şurasındakı mənbəyə istinadən məlumat yayıb. Onlardan 11 şirkət Rusiya xaricində yerləşir: Çində 7, Honkonqda 3 və Türkiyədə 4 şirkət, həmçinin Hindistanda Rusiyaya məxsus neft emalı zavodu buraya daxildir. Bu şirkətlər Rusiyanın hərbi-sənaye kompleksi üçün tədarük həyata keçirməkdə şübhəli bilinir.

Aİ hesab edir ki, bu, Moskvanın ikili təyinatlı texnologiyalara çıxışını məhdudlaşdırmağa imkan verəcək. Yeni paketə Rusiyanın "kölgə donanması"nın daha 105 gəmisinin daxil edilməsi ilə qadağan edilmiş gəmilərin sayı 400-ü keçir. Sanksiya paketi Rusiyanın 22 bankı ilə əməliyyatlara da qadağa qoyur. Beləliklə, yeni sanksiyalar paketi fiziki və hüquqi şəxslərin siyahısının genişləndirilməsini, Rusiya neftini daşıyan tankerlərə və bir sıra banklara qarşı məhdudiyyətləri, həmçinin ikili təyinatlı mal və texnologiyalara qarşı yeni ixrac məhdudiyyətlərini nəzərdə tutur.

### 19-cu sanksiyalar paketi üzərində iş başlayıb

May ayında təsdiqlənmiş 17-ci sanksiya paketinə isə "kölgə donanması"ndan olan 189 gəmi daxil edilmişdi. Paketə "hibrid təhdidlərlə mübarizə və insan hüquqlarının müdafiəsi" tədbirləri də daxildir. Bundan başqa, bu sanksiyalar Rusiyanın davam edən müharibəsinin xərclərini də artırmağı hədəfləyib - bu, həm də Aİ-nin Ukraynaya davamlı və sarsılmaz dəstəyinin bariz siqnalı kimi xarakterizə olunur. Paketdə fiziki və hüquqi şəxslərin sanksiya siyahısı da genişləndirilib. Paketə, həmçinin Rusiyanın hərbi-sənaye kompleksinə birbaşa və ya dolayı dəstək verən və ya sanksiyalardan yayınmada iştirak edən 31 yeni şirkət də daxil edilib. Fərdi sanksiyalar üzrə siyahıya isə daha 75 şəxsin adı əlavə olub. Belə ki, Rusiya Müdafiə Nazirliyinin Radiasiya, Kimyəvi və Bioloji Müdafiə Qoşunları, 27-ci Mərkəzi Elmi-Tədqiqat İnstitutu və 33-cü Mərkəzi Tədqiqat və Sınaq İnstitutu da sanksiyaların hədəfi sırasındadır. Bütün bunların ardınca, 18-ci sanksiyaların paketinin təsdiqlənməsi Rusiyaya ciddi zərbə ola bilər.

Nəzərə alaq ki, 18-ci sanksiyalar paketi təsdiqləndikdən dərhal sonra Avropa İttifaqı növbəti məhdudlaşdırıcı tədbirlər paketi üzərində işləməyə başlayıb. Bu barədə Estoniyanın xarici işlər naziri Marqus Tsaxkna bildirib. O, Rusiyaya qarşı 19-cu sanksiyalar paketi üzərində işin başladığını təsdiqləyib və Avropa İttifaqının "yarımçıq tədbirlərlə kifayətlənməyəcəyini" bəyan edib. Avropa İttifaq hesab edir ki, Rusiyanın işğalçı siyasətini dayandırmaq üçün sanksiyaları daha da gücləndirmək lazımdır.

**N.BAYRAMLI**

# Dünyanı zəbt eləyən yumşaq güc

## Fransua Moriakın "İlan yumağı" romanı haqqında

*əvvəli ötən sayımızda*

Bundan sonra qəhrəmanla arvadı, övladları arasında açılmış çatlar bir az da dərinləşir. Qeydlərində o özünü qızılpərəst adlandırır, hesab eləyir ki, bu xasiyyəti ona kəndçi qızı anasından keçmədir. Luiyə həmişə elə gəlib ki, arvad-uşağını yalnız var-dövlət hesabına özündən asılı vəziyyətdə saxlayıb istədiyi səmtə yönəldə bilər. Var-dövləti ondan ötrü hakimiyyət aləti; cüzdanı, pul-parası - qışlası, qoşunu; qızılgümüş mücrüsü - topu-topxanası olub. Gündəliyində ailəsinə müraciətlə yazır ki, qızıl sizi şirnikləndirir, məni isə qoruyur. Ordusunu döyüş hazırlığına gətirmiş qəhrəman fikrində həm arvadıyla, həm də oğluqızıyla böyük kapital savaşına çıxır, öləndən sonra sərvəti onlara qismət olmasın deyə cürbəcür hüquqi yollar axtarır, yuridik fəndlər düşünüb tapır. Arvadı despot ərindən çəkinir, övladları xəsis atalarından həm qorxur, həm də ona nifrət bəsləyirlər. Bir sözlə, ailə xalis cəhənnəm batalyonu, ev də qır qazanıdır.

Təhkiyəçi arvadını bir də bunda qınayır ki, qadın əvvəlcə ömrünü bütünlüklə övladlarının, sonra da nəvələrinin qayğılarına həsr eləyib, onu - ərini isə qapı dalında qoyub, həyatının bir küncündə ona yer ayırmayıb, onu duymağa, onu başa düşməyə əsla maraq göstərməyib. Ondan da, övladlarından da ötrü evin kişisi yalnız pul dağarcığı funksiyasını yerinə yetirib. Arvadı özünü inanclı adam sayır, uşaqlarını yanına salıb hər bazar kilsəyə gedir, bütün dini ritualları yerinə yetirir. Əri hərdən onu dini söhbətlərə çəkəndə qadının etiqadının nə qədər üzdə olduğu, yaşayışının inancına uyuşmadığı dərhal özünü göstərir. Uşaqlarının da dindarlığı zahiri ayinlərə əməl eləməkdən uzağa getmir.

Bir sözlə, ana da, balaları da dinə, kilsəyə yalnız Tanrının bəlalardan sığınacaq yeri kimi pənah aparırlar. Nə İzada, nə qızı Jenevyevada, nə də oğlu Güberdə xristian sevgisindən, itaətkarlıqdan əsər-əlamət yoxdur. Kilsə onlara yalnız öz sağlamlıqlarını, rifahlarını, sərvətlərini sığortalamaq üçün ilahi kontor kimi gərəkdir.

***

Lui uşaqlarından yalnız sonbeşik qızı Mariyə mehrini salır. O zavallı qızcığaz da həm ata-anasının, həm də yerli həkimin səhlənkarlığı ucbatından uşaqkən xəstələnib ölür. Atası bu zərbəyə çətinliklə davam gətirir, əsər boyu qızını tez-tez yadına salır, Marinin xatirəsi, o dünyadan axıb içinə dolan hənirtisi ona həyan durur, ona, özünün dediyi kimi, canavar sürüsünün arasından sağ çıxmaqda böyük kömək göstərir.

Baldızı öləndən sonra onun övladlığa götürdükləri oğluna da Lui ürəkdən bağlanır, doğma balalarından fərqli olaraq bu uşaq da onda atalıq duyğusu oyadır. Qəhrəman səmimi, şən, açıq könüllü Lyuka sevgisinin səbəbini o gözütox uşaqda özünə, öz belindən gəlmiş balalarına bənzər heç nə olmamasına bağlayır. Xatırlayır ki, Lyuk xalası uşaqlarıtək pul hərisi deyildi, tamah nədir bilməzdi, onunla həmişə sərbəst, açıq danışardı, doğmaca balalarından fərqli olaraq ondan qorxub çəkinməz, atalığına xoxantək baxmaz, ona altdan-altdan nifrət bəsləməzdi. Bir sözlə, Lyuk bu evdə Maridən sonra ona bənzəməyən tək məxluq olub. Yəqin riyakar, tamahkar balalarına oxşamadığına görə xalasının sevmədiyi Lyuk əsgərlik yaşı tamam olar-olmaz könüllü cəbhəyə yollanır, bir də geri qayıtmır.

Sonralar bir müddət evin daimi qonağına, daha doğrusu, sakininə çevrilən abbat Arduen də advokat Luinin təskinlik yerinə çevrilir. Keşiş sadə, əncaq müdrik sözləriylə onun qəlbinə su səpir, onun beynində tüğyan eləyən fırtınaları yatırmağa çalışır. Arvad-uşağından yalnız biganəlik görmüş vəkil Lui abbat Arduenin ürəyə məlhəm kimi yaxılan sözlərindən, onu xeyirxah adam saydığını deməsindən sonra mərdimazarlıq eləməkdən, ədalətsiz davranmaqdan çəkinir, özünə bir ayrı gözlə baxmağa, özünü tanımağa başlayır.

Bu yeni baxış yavaş-yavaş tövbə qapısını da onun üzünə açmaqdadır. Ürəyinin qapıları, bacaları, pəncərələri tam açılandan sonra qəhrəman əlinə qələm alıb həyatına dalacaq. Yadına düşəcək ki, İzanı aldatmaq üçün yox, saxta sevgisinə görə ondan qisas almaq üçün, qanayan yarasına kül basıb ağrısını kiritmək üçün ayğırını sağa-sola çox çapıb, çox çəpərlər basıb qapılar qırıb. Bəzən də yürüşlər davamlı olub, belə yürüşlərin biri bic oğlan uşağının dünyaya gəlməsiylə sona çatıb. Oğlanın anası hüquq müdafiəçisinin despotizminə dözmədiyinə görə uşağını da qoltuğuna vurub Parisə köçüb. Lui onları daha görməsə də, pullarını vaxtlı-vaxtında göndərib.

***

Atalarının get-gedə qəlizləşməsi, nifrətini bütün gücüylə işə salıb dözülməz xarakter alması vəkilin oğlunu, qızını, gəlinini, kürəkənini, nəvəsini, nəvəsinin ədabaz ərini, bir sözlə, hamını həyəcan içində saxlayır. Uşaqları maraqlandıran budur ki, görəsən o dünyanın astanasında olan ataları öz sərvətini necə bölüşdürəcək, kimə nə vəsiyyət eləyəcək. Bir axşam onlar bağda toplaşıb məşvərət məclisi qururlar, atalarını ruhi xəstə adıyla dəlixanaya basdırmağın yollarını axtarırlar. Bundan təsadüfən xəbər tutan Luinin ürəyi bir-birinə sarmaşan zəhərli ilanların sarındığı yumağa dönür. Doğmaca övladlarının bunca allahsız, əclaf olduqlarını bütün qəzəbinə, nifrətinə baxmayaraq o yenə gözləmirmiş.

Lui qərara alır ki, Parisə gedib bütün sərvətini nikahdankənar oğluna bağışlasın. Yola düşənə yaxın arvadıyla sonuncu dəfə mükaliməyə girir. Heç gözləmədiyi halda ona əyan olur ki, arvadı uzun illər onun üzündən iztirab çəkib, gecələr əri yatağına girər deyə uşaqları yanında yatırmayıb. Ürəyində bir qığılcım çırtlasa da, Lui səfərindən daşınmır.

Parisdə o, təsadüfən oğlu Güberlə kürəkəni Alfredi görür. Anlayır ki, planını pozmaq üçün onun izinə düşüblər. Paytaxtda qaldığı müddətdə Lui İzanın öldüyü haqda teleqram alır, çətinliklə də olsa özünü dəfnə çatdırır. Artıq İza onun məktubunu oxumayacaq, gündəliklərini varaqlamayacaq, halbuki bu əziyyətə Lui arvadına görə qatlaşmışdı, ürəyini məhz ondan ötrü açıb tökmüşdü. Amma İza bu dünyadan onu tanımadan köçdü, onu yalnız zalım sandı, cəllad bildi, onun içindəki aləmdən, ruhundan, düşüncəsindən xəbərsiz getdi. Artıq dizə döyüb ağlamağın faydası yoxdur.

***

Atayla övladları arasında çoxdan gözlənən ağır söhbət, nəhayət, baş tutur. Qəhrəman oğluna-qızına izah eləyir ki, öz evində özünü bir sürü qanıq canavarın arasına düşmüş xəstə qoca kimi hiss eləyir. Güberlə Jenevyeva atalarını inandırmağa çalışırlar ki, onların hərəkətləri ona qarşı düşmənçilik yox, vur-tut qanuni özünümüdafiə xarakteri daşıyıb.

İçindən çölə dartınan ruhunun beynini, vücudunu başdan-başa qapsaması nəticəsində, qəlbindən daşıb kainata püskürən sevginin, mərhəmətin təsiri, balalarının heyrətli baxışları altında xəsis advokat Lui qəfildən milyonluq var-dövlətini övladlarına bağışlamaq qərarına gəlir, nikahdankənar oğluna isə ömürlük renta ayırır. Bundan sonra təhkiyəçi çiynindən ağır bir yük atılmış kimi, ayaqlarından kündə açılmış kimi yüngülləşdiyini, rahat nəfəs aldığını söyləyir. Etiraf eləyir ki, ömrü boyu ehtirasların əsiri olub, fəqət həmin ehtiraslar varlığına şəriksiz yiyələnə bilməyib. Yalnız altmış səkkiz yaşında qara yuxudan ayılıb bu zirzəmidən çıxmaq, ölümqabağı doğulmaq ona nəsib olur.

Zəncirlərindən xilas olandan sonra Luinin qalan ömrü ilahi sevinc qoynunda sakit, firavan keçir. Sarsaq, ədabaz əri Filinin atıb getdiyi nəvəsi Yanina da öz körpəsiylə babasının evində məskunlaşır. Qocanın dizindən tutub dikələn nəticəsinin yumşaq saçına, toppuş yanağına sığal çəkəndə Lui heç vaxt duymadığı qədər rahatlıq tapır, Marini, Lyuku, abbat Ardueni xatırlayır; öz növbəsində özü də Jan Valjanı (Hüqo), Dombi atanı (Dikkens), Raskolnikovu (Dostoyevski), Nexlyudovu (Tolstoy) - gəlmiş-getmiş, tanıdığımız-tanımadığımız bütün ölümdən qayıtmışları, dirilmişləri xatırladır. Köksünə inam, etiqad havası dolandan sonra Lui anlayır ki, onun ailəsinin güzəranı gerçək xristian həyat tərzinə yalnız parodiya, karikatura olub. Beləcə, qəhrəmanın sinəsində yuva qurmuş zəhərli ilanlar sarmaşıq mövsümünü başa vurub öz cəhənnəminə qayıdır, ilan yumağı çözülür.

***

Əsər, dediyimiz kimi, iki məktubla yekunlaşır. Bacısı Jenevyevaya yazdığı məktubda Güber atalarının ölümünü xəbər verməklə yanaşı onun qeyd dəftərindən, gündəliklərindən söz açır, ömrünün sonlarında mərhumun dinə, Tanrıya tapınmasını psixi xəstəlik əlaməti kimi yozur:

"Sənin qızının sözləri yalnız indi mənə aydın olur, mən bunu xəstə təxəyyülün uydurması kimi qavrayıram. O deyir ki, babam həyatda gördüyüm yeganə gerçək dindardır. Zavallı Yanina bu sinir xəstəsinin dumanlı xülyalarını, arzularını ciddi qəbul eləyib. Öz doğmalarının düşməni, hamının nifrət bəslədiyi, heç vaxt dostu-sirdaşı olmamış adam, oxuyanda özün də görəcəksən, sevgidən yarımamış (burada gülməli təfərrüatlar var), öz arvadına qızlıq işvəsini bağışlaya bilməyən qısqanc divanə necə oldu ki, ömrünün sonunda birdən-birə dində-imanda təskinlik aramağa başladı? Mən belə bir çevrilişə dünyasında inanmaram. Oxuduqlarımdan çıxardığım nəticə budur: açıq-aydın görünən əqli sapıntı, izlənmə maniyası örnəyi, bir dəlinin dini dona bürünmüş xəstə mühakimələri. Sən düşünə bilərsən: doğrudanmı burada saf xristian etiqadından əsər-əlamət olmayıb? Yox. Bunu tam əminliklə söyləyirəm, çünki belə məsələlərdən yaxşı baş çıxarıram, bu cür mömintliyin, dindarlığın da nələrə başa gəldiyini bilirəm. Doğrusunu desəm, atamızın yalançı mistisizmi məndə ikrah doğurur.

Yəqin bir qadın kimi sən bu məsələyə fərqli yanaşacaqsan. Ancaq əgər atamızın qəfil dönüb dindar olduğuna inanmaq istəsən, yadında saxla ki, o, nifrət bəsləməyi çox gözəl bacarırdı, kimisə sevərdisə də, yalnız kiminsə acığına sevərdi. Öz tövbənaməsində o, qəlbini vəcdə gətirən dini duyğulardan dəm vurur, əslində isə həm birbaşa, həm də dolayı vasitələrlə anamızın uşaqlıqdan bizə aşıladığı prinsipləri gözdən salır. O, çılğın bir mistisizmə ona görə söykənib ki, ailəmizdə həmişə rəğbətlə riayət olunan ağıllı, mötədil dindarlığın dayaqlarına rahat balta çala bilsin. Halbuki həqiqət - tarazlıq deməkdir..."

*davamı növbəti sayımızda*



**F.Uğurlu**

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Şənbə üçün nəzm



**MƏN SEÇDİM ALDANMAĞI**

Sən məni aldatmadın,
mən seçdim aldanmağı.
Gəl, sənə də öyrədim
üşüyərək yanmağı.
Bir ocaq qalamısan, tüstüsü göyü dəlir,
Məni görən uşaq da deyir ki:
“dəli” gəlir.
Həsrətin bahar olub, yaralarım gül açır,
Səndən sonra tellərim
ölüm qoxusu saçır.
Mən atalı, analı yetim qalan körpəyəm,
Mən torpağa çırpılıb,
paralanan kölgəyəm.
Nə tufandan qorxum var, nə doludan, nə qardan,
Mənim kimi sevəni bir də
taparsan hardan?
Gəl, sənə əllərimi qurban kəsim,
birdənəm,
Cəl, sənə Vətən olum, gəl,
Nəfəsim, Birdənəm!



**HARDAN BİLƏSƏN?**

Bu nağıl bitən deyil,
Hələ neçə bölüm var.
Gəl, gözlərindən öpüm,
Ayrılıq var, ölüm var.

Ruhum göyə sovrulur,
Cismimi torpaq udur.
Bağrına bas bir anlıq...
İlahi, cənnət budur?!

Nəfəsimi boynunun,
Ətrinə qurban kəsim.
Necə dua edim ki,
Yetsin Tarıya səsim?

Bilirsən necə sönür,
Ciyərindən yananlar?
Bilirsən necə olur,
Ölümdən yarananlar?

Hər gecə, milyon dəfə
Cəhənnəmdən keçərsən.
Didib yaralarını,
Öz qanını içərsən.
Darıxan əllərindən,
Yanıq qoxusu gələr.
Sürünər ürəyində
Dərdin ilantək mələr.
Payızda yarpaqlarla,
Saçlarını tökərsən.
Baharda yollarına,
Gözlərini əkərsən.
Bilsən nədir yox olmaq,
Yaranmaqçün ölərdin.
Bilsən...hardan biləsən,
Mən olsaydın bilərdin...

**KİRİ...**

Tanrının gözündən
taleyinə düşən adam.
Öz içinə yıxılarsan,
dərdinə ilişən adam.
Yaramadın alovuna quş
dimdiyində su qədər.
Burax dünyanın ətəyin,
inadkar olma bu qədər.
Sən hələ saydığını say gör,
bir Fələk nə sanayar.
Sinəsində dağ gəzənin
ayaq izləri qanayar.
Kiri, bu bəxtə,
qismətə qoyulası ad tapmazsan.
Dəryalardan bir damla su,
cəhənnəmdən od tapmazsan.
Ovucların qan qoxuyur...
Öz əlində qalan adam.
Bir Allah bəndəsi yoxmu
səni səndən ala, adam.

# Cansız fiqurların səssiz döyüşü...

## Şahmat zəka və məntiq oyunudur

İnsan zəkasının yaradıcılıq məhsulu olan şahmat bu gün yalnız sadəcə bir oyun kimi deyil, həm də bəşər mədəniyyətinin maraqlı bir sahəsi kimi yüksək qiymətləndirilir. Bu oyun hər şeydən əvvəl mübarizədir. 64 xanalı taxta lövhə üzərində cansız fiqurlar arasında gedən səssiz-səmirsiz döyüş olan şahmat mübarizəsi insanda təhlil qabiliyyətini artırır, təxəyyülü gücləndirir, dözüm, inad, qətiyyət və dəmir iradə tərbiyə edir. Şahmatda siyasi kombinasiyalar belə mövcuddur.

## 101 il öncə...

İyulun 20-si dünyada Beynəlxalq Şahmat günü kimi qeyd olunur. Bayram 1966-cı ildən UNESCO-nun rəsmi bayram günləri təqviminə salınıb. Seçilən tarix heç də təsadüfi deyil. 1924-cü ilin məhz iyul ayının 20-də, Fransanın paytaxtı Paris şəhərində Ümumdünya Şahmat Federasiyası (FİDE) yaradılıb. Artıq 101 ildir ənənəyə çevrilən bayram, Azərbaycan da daxil olmaqla dünyanın 178 ölkəsində qeyd olunur.

## Şahmat nə vaxt və necə yarandı?

Şahmat 1500 il bundan əvvəl Hindistanda meydana gəlib və ilk vaxtlar “çaturanq” adlanırdı. Bu oyunun qaydaları vaxt ötdükcə dəyişərək indiki halını alıb. Rəvayətə görə, hind müdriklərindən biri çaturanq oyununu qanlı müharibələrin qarşısını almaq üçün icad edib: Döyüş əməliyyatlarını adi taxta üzərində aparmaq və qələbəni insanın ən güclü silahı - ağılla qazanmaq mümkündürsə, onda nəyə görə qan tökülsün? Bu oyun hind şahzadəsini valeh edir. Şahzadə bu oyunu icad edən şəxsi mükafatlandırmaq məqsədi ilə saraya çağıraraq deyir: “Nə arzun varsa, de, yerinə yetirim”. Həmin müdrik şəxs birinci xana üçün 1, ikinci xana üçün 2, üçüncü xana üçün 4, dördüncü xana üçün 256 və bu minvalla 64 xananın hər biri üçün həndəsi silsilə ilə artan qaydada buğda istəyir. İxtiraçının istəyinin bir kisə buğdadan çox olmayacağını düşünən şahzadə bu xırda ənamı verməkdən utanır və həmin şəxsə çoxlu qızıl-gümüş təklif edir. Müdrik şəxs bununla razılaşmır. Şahzadə xəzinədarı çağırır və xahişi yerinə yetirməyi əmr edir. Səhəri gün xəzinədar şahzadəyə ixtiraçının istədiyi buğdanın həddən çox olduğunu xəbər verir. Bunun 18 446 744 073 709 551 616, yəni 18 kvintilyon 446 kvadrilyon 744 trilyon 73 milyard 709 milyon 551 min 616 buğda dənəsi etdiyini deyir. Bu qədər buğdanı bir yerə yığmaq üçün hündürlüyü 4 metr, eni 10 metr, uzunluğu isə 30 milyon kilometr olan anbar gərəkdir. Şahzadə heyrətlənir və müdrik insanın ağlına bir daha heyran qalır.



## Ölkəmizdə şahmatın inkişaf tarixi

Azərbaycanda şahmatın intellektual idman növü kimi tarixi qədim zamanlara gedib çıxır. Ölkəmizdə şahmat oyunu özünü təsdiq edənə qədər böyük inkişaf yolu keçib. Tədqiqatçıların fikrincə, şahmatın ilk forması olan çətrəngin əsrlər boyu təkmilləşdirilib şətrənc (şahmatın ikinci inkişaf mərhələsi) halına salınmasında, həmçinin şətrəncin inkişaf etdirilib müasir şahmata çevrilməsində böyük əmək sərf etmiş xalqlardan biri də azərbaycanlılar olub. Azərbaycan xalqının görkəmli elm, sənət adamları hələ qədim zamanlarda Hindistanda şahmatın yaradılması ilə maraqlanıb, onun başqa ölkələrə yayılmasını daim izləyib və özləri də VI əsrin axırlarında həmin oyunla yaxından məşğul olublar. Lakin o dövrün şahmat oyunçularından heç kəsin adı bizə məlum deyil.

## İlk azərbaycanlı şahmatçı...

Orta Asiya əlyazmasında adı çəkilən ilk Azərbaycan şahmatçısı Cəlaləddin Naxçıvanidir (IX əsr). Xaqani Şirvani (XII əsr), Nizami Gəncəvi (XII əsr), İmadəddin Nəsimi (XIV əsr), Məhəmməd Füzuli (XVI əsr) kimi dahi mütəfəkkirlərimiz öz əsərlərində şahmatı tərənnüm edib, onun haqqında mənalı, dərin fikirlər söyləyiblər. XI əsrdə yaşamış görkəmli mütəfəkkirimiz Qətran Təbrizinin əsərlərində o dövrün şahmatı haqqında maraqlı məlumatlar verilib.

Şahmat həqiqətən sirli bir aləm, möcüzələr dünyasıdır. Bu oyun, həmçinin çətin tapşırıqları həll etmək və yeni ideyalar yaratmaq imkanı verir. Təəccüblü deyil ki, altsqeymer xəstəliyinə qarşı mübarizə metodu kimi şahmat oynamağı tövsiyə edirlər.

*Yeganə BAYRAMOVA*

*İdman*

# Bakı Formula 1-ə hazırlaşır: yeni tribunalar, gecə iş rejimi və 30 faizlik artım proqnozu

Sentyabrın 19-21-də Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-prisinə hazırlıq işləri sürətlə davam edir. Bakı bu il də ənənəsinə sadiq qalaraq beynəlxalq arenada uğurla təmsil olunmağa hazırlaşır.

AZƏRTAC xəbər verir ki, yarış öncəsi görülən işlərin gedişatı ilə tanış olmaq məqsədilə media nümayəndələri üçün xüsusi tur təşkil olunub. Media nümayəndələri trekin hazırkı vəziyyəti, tikinti və yenidənqurma işləri, paddok zonasında aparılan yeniliklər, tribunaların quraşdırılması və ümumi hazırlıq prosesi ilə yaxından tanış olublar. Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) nümayəndələri media üzvlərinə ətraflı məlumat təqdim ediblər.




Tur çərçivəsində yarış həftəsində planlaşdırılan tədbirlər, fan zonaları və əyləncə proqramları barədə də ilkin məlumat verilib. Qeyd olunub ki, builki yarış təkcə idman hadisəsi olmayacaq, eyni zamanda, Bakının beynəlxalq imicinə də mühüm töhfə verəcək.

Tikinti və quraşdırma işləri: fasiləsiz gecə növbələri

Bakı Şəhər Halqasında aparılan tikinti və quraşdırma işlərinə ümumilikdə 2 min 162 nəfər podratçı əməkdaş cəlb olunub. Bu işlər demontaj mərhələsinə qədər fasiləsiz davam edəcək. Yarış həftəsində isə əlavə olaraq 1500 təşkilatçı əməkdaş, 2 min könüllü və 1400 marşal prosesə qoşulacaq. İşlər gecə-gündüz növbəli rejimdə aparılır və əsas əməliyyatlar şəhər sakinlərinə narahatlıq yaratmamaq üçün yalnız gecələr həyata keçirilir. Bütün bu proseslərdə yalnız yerli, Azərbaycan podratçıları iştirak edir ki, bu da yerli kadr potensialının inkişafına xidmət edir.

Minimum məhdudiyyətlər və nəqliyyat koridorları

2023-cü ildən başlayaraq yarış zamanı şəhərin gündəlik həyatı ilə yarış əməliyyatları arasında balans yaratmaq məqsədilə əsas yollar müəyyən saatlarda qismən açıq saxlanılır. Bu təcrübə 2024-cü ildə genişləndirilib və nəqliyyat koridorlarının sayı 2-dən 5-ə çatdırılıb. Bu dəhlizlərdən istifadə edən sürücülərin sayı ötən illə müqayisədə 30% artıb. Proqnozlara görə, 2025-ci ildə bu göstəricinin əlavə 30% artacağı gözlənilir.



Hazırlıq müddəti yarıya endirildi

Texniki hazırlıq mərhələsində tətbiq olunan yeni texnologiyalar sayəsində quraşdırma və demontaj işləri əhəmiyyətli dərəcədə sürətləndirilib. Əgər əvvəlki illərdə trasın tam hazırlanması 12 həftə çəkirdisə, bu il bu müddət cəmi 6 həftəyə endirilib. Yarışdan sonra yol infrastrukturu da tez bir zamanda əvvəlki vəziyyətinə qaytarılır. 2024-cü ildə beton blokların 60%-i cəmi 16 saat ərzində sökülərək ərazidən çıxarılıb və ertəsi gün saat 13:00-dan etibarən şəhər demək olar ki, normal nəqliyyat rejiminə qayıdıb.

Turist axını və tamaşaçı marağı artır

Formula 1 Azərbaycan Qran-prisi ölkənin turizm baxımından da əsas hadisələrindən birinə çevrilib. Ötən il tribunaların tamaşaçılarının 77%-ni xarici turistlər təşkil edib və onların ölkədə orta qalma müddəti 5 gecə olub. Bu isə yerli turizm və xidmət sektoruna ciddi iqtisadi töhfə verir.

Artan maraq fonunda bu il 20 mindən çox oturacaq yeri planlaşdırılıb. Tribunaların 5-i artıq tam satılıb və tələbatı nəzərə alaraq əlavə 2 yeni tribunanın quraşdırılmasına qərar verilib.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4336
Sifariş: 1487
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova